

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 may 2026-cı il, cümə

№ 089 (7156)

Qiyməti 60 qəpik


# Cənubi Qafqaz üçün vahid inkişaf strategiyası...

## Parisdən zəng...

### Prezident İlham Əliyevlə Fransa Prezidenti arasında telefon danışığı olub

Bax səh. 2

## Bakı-Tbilisi əlaqələri yeni mərhələdə: davamlı əməkdaşlıq, geniş strateji perspektiv




Bax səh. 2

## Dünyanın şəhər problemləri
### Azərbaycan paytaxtından baxış

Bax səh. 3

## WUF13 -ün qalıcı irsi - "Bakı Şəhərsalma Mükafatı"

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Hökuməti və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) dayanıqlı şəhər inkişafı sahəsində yeni qlobal mükafat - "Bakı Şəhərsalma Mükafatı" təsis edib. Bakı Şəhərsalma Mükafatı uzunmüddətli sosial, iqtisadi və ekoloji təsir potensialına malik praktik şəhər həllərinin beynəlxalq səviyyədə təşviqinə yönəlmiş qlobal platforma kimi formalaşdırılır.

Mükafat Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) əsas qalıcı irsindən biri olacaq. Mükafat Forum çərçivəsi ilə məhdudlaşmayaraq, qlobal şəhər gündəliyinin uzunmüddətli təşviqinə xidmət edən beynəlxalq mexanizm kimi nəzərdə tutulur. Təşəbbüs üç əsas istiqamətin birləşdirilməsini nəzərdə tutur: Şəhərsalma mütəxəssisləri tərəfindən artıq tətbiq olunan praktik həllər; ekspert bilikləri və elmi əsaslandırılmış yanaşmalar; uğurlu təcrübələrin milli və beynəlxalq siyasətə inteqrasiyası. Qiymətləndirilmə memarlıq, şəhərsalma, mənzil təminatı, iqlim dayanıqlılığı, maliyyə və vətəndaş cəmiyyəti sahələrində aparıcı beynəlxalq ekspertlərdən ibarət müstəqil münsiflər heyəti tərəfindən həyata keçiriləcək. Mükafat dünyanın bütün regionlarını təmsil edən iştirakçılar üçün açıq platforma olacaq.

"Bakı Şəhərsalma Mükafatı"nın təsis olunması Azərbaycanın qlobal şəhərsalma və iqlim gündəliyinə uzunmüddətli sadiqliyinin növbəti təzahürüdür. Bu istiqamətdə həyata keçirilən təşəbbüslərə COP29-a ev sahibliyi, "Dayanıqlı və Sağlam Şəhərlər üçün Multisektoral...

Bax səh. 4



Bax səh. 4

## YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib

## İlk milli dayanıqlı inkişaf standartı hazırlanır

Bax səh. 5

## Vaşinqton Ankaranı bölgədə əsas müttəfiqi hesab edir

Bax səh. 7

## ABŞ - İran danışıqları iyunda bərpa oluna bilər

Bax səh. 7

## "Yaşıl enerji" gündəliyi Azərbaycan masasında...

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında müasir inkişafın atributlarından biri olan bərpaolunan enerji mənbələrindən səmərəli istifadə və enerjinin "ağıllı tədarükü" kimi məsələlər də əsas diqqətçəkən mövzulardan biri kimi yadda qalmaqdadır. Tədbirdə iştirak edən dünyanın aparıcı təşkilatlarının və şirkətlərinin nümayəndələrinin çıxışlarından da aydın görünür ki, "yaşıl enerji" istehsalı müasir urbanizasiyanın vacib elementi kimi çıxış edir, şəhər arxitekturasının dayanıqlı mənbələrindən birinə çevrilməkdədir. Bu baxımdan WUF13 çərçivəsində Azərbaycan hökuməti ilə nüfuzlu institutları arasında Bakıda aparılan müzakirələr "yaşıl enerji" tədarükünün aktuallığını ön plana çıxarır, regional enerji zonasının genişlənməsinə dəstək verir. Bu, həm də, ölkəmizin iqlim dəyişikliyi və ətraf mühitin qorunması, eləcə də "yaşıl iqtisadiyyat"ın güclənməsi ilə bağlı qlobal həmrəyliyin artmasında fəal təşəbbüskarlığını nümayiş etdirir, yeni "yaşıl sərmayələrin" təşviqinə impuls verir.

Bu cür faydalı fikir mübadilələri iki nəhəng maliyyə təsisatı - Dünya Bankı (DB) və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) heyətinin üzvləri ilə keçirilən görüşlərdə də əlamatdarlığı ilə seçilib. Energetika naziri Pərviz Şahbazovun

Dünya Bankı Qrupunun infrastruktur üzrə vitse-prezidenti Valeri Levkovun iştirakı ilə keçirilən görüşündə dənizdə külək enerjisi layihələri, "ağıllı şəbəkə" texnologiyalarının tətbiqi və batareya enerji saxlama sistemləri (BESS) üzrə əməkdaşlıq məsələləri müzakirə olunub. Həmçinin, elektrik şəbəkələrinin modernləşdirilməsi, enerji səmərəliliyi və regional enerji bağlantıları sahəsində əməkdaşlığın genişləndirilməsinə diqqət çəkilib, Dünya Bankının tərəfindən bu istiqamətlərdə Azərbaycana dəstək göstərməyə hazır olduğu vurğulanıb...

Bax səh. 5

## Seçki qarşıdurması genişlənir



Bax səh. 6

## Latviya müharibəyə qoşulur?



Bax səh. 6

# Parisdən zəng...

## Prezident İlham Əliyevlə Fransa Prezidenti arasında telefon danışığı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin X sosial media hesabında paylaşım edilib. Paylaşımda deyilir: "Bu gün Prezident Emmanuel Makrondan (@EmmanuelMacron) telefon zəngi aldım. Telefon danışığı zamanı Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin gündəliyində duran məsələləri nəzərdən keçirdik və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi apardıq.

Biz, həmçinin regional və qlobal prosesləri müzakirə etdik".





# Cənubi Qafqaz üçün vahid inkişaf strategiyası...

## Azərbaycan ilə Gürcüstan arasında imzalanan yeni sənədlər qlobal iqtisadi nizama yeni ruh gətirəcək

## Bakı-Tbilisi əlaqələri yeni mərhələdə: davamlı əməkdaşlıq, geniş strateji perspektiv

**XXI əsrin ikinci onilliyinin başlanğıcı Avrasiya regionunda mühüm dəyişikləşiklərlə yadda qaldı - Cənubi Qafqazda yeni transformasiya dövrünə start verilməsi, Şərq-Qərb münasibətlərində ticari elementlərin ön plana çıxması, güc mərkəzlərinin yerdəyişməsi, qlobal iqtisadi ağırlığın Qərbdən Şərqə keçməsi özündə genişmiqyaslı geosiyasi yenilənməni ifadə edir. Dünya iqtisadiyyatının rəqəmsallaşması, enerji sektorunda yeni balansın formalaşması, istehsal və ticarət marşrutlarının Şərqə doğru sürətlə yönəlməsi Avrasiyanın strateji çəkisini artırıb. Bu yeni konfiqurasiyada Azərbaycanın mövqeyi regionun adi tranzit ölkəsindən qlobal proseslərin koordinasiya mərkəzinə çevrilməsi ilə xarakterizə olunur - Bakının səyi nəticəsində bu gün Cənubi Qafqaz artıq kompleks geoiqtisadi modellərin tətbiq olunduğu, təhlükəsizlik və logistik inteqrasiyanın paralel şəkildə reallaşdığı mühüm strateji platformadır. Günümüzün dinamikası göstərir ki, Avrasiyanın gələcək iqtisadi arxitekturası müxtəlif qütblər arasında rəqabət deyil, əlaqələndirmə üzərində qurulacaq. Bu mənada Azərbaycan həm Şərq istehsal sistemləri, həm də Qərb texnoloji və maliyyə mərkəzləri arasında optimal sintez yaradan unikal mövqeyə malikdir. Bu, bütövlükdə regionun iqtisadi xəritəsinə yeni ştriklər əlavə etməklə yanaşı dövlətlərarası münasibətləri də yeni bir mərhəlyə qaldırır. İllərdir ki, Qafqazın iqtisadi təhlükəsizlik konsepsiyası Bakının strateji yol xəritəsi ilə tənzimlənir.**

### Yeni strateji imkanlar...

Azərbaycanın apardığı siyasət bütövlükdə region dövlətləri arasında münasibətləri yeni bir mərhələyə qaldırır. Gürcüstan ilə əlaqələr isə bu siyasətin ən uğurlu nümunələrindən biri kimi çıxış edir. İki ölkə arasında formalaşmış münasibətlər təkcə coğrafi yaxınlıqdan deyil, həm də ortaq maraqlardan, tarixi bağlardan və qarşılıqlı etimaddan qaynaqlanır. Siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji və nəqliyyat layihələri, eləcə də regional təhlükəsizlik məsələlərində birgə fəaliyyət bu münasibətlərin çoxşaxəli xarakterini nümayiş etdirir. Yeri gəlmişkən, Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində Azərbaycana səfəri və iki ölkə arasında iqtisadiyyat, enerji və nəqliyyat sahələrində ikitərəfli əməkdaşlığın dərinləşməsinə dair hərtərəfli sazişlər toplusu imzalaması sübut edir ki, Bakı ilə Tbilisi arasında ənənəvi strateji tərəfdaşlıq keyfiyyətcə müsbəi inkişafə xətti ilə davam edir. Qeyd edək ki, imzalanma mərasimi 18 may 2026-cı ildə Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin iştirakı ilə baş tutub. İmzalanan sənədlər isə özlüyündə qlobal geoiqtisadi anlam daşımaqdadır - Azərbaycan Gürcüstanla birlikdə Orta Dəhliz vasitəsilə Asiya və Avropanı, Şimalla Cənubu birləşdirən qlobal logistikaya və nəqliyyat qovşağına yeni mahiyyət qazandırır.

### Enerji tərəfdaşlığı...

Azərbaycanın qlobal dünyaya qazandırdığı yeni iqtisadi-ticari imkanlar günümüzün reallığında mühüm bir mənzərə yaradıb - regional kataklizmlərin baş alıb getdiyi, qütblərarası qarşıdurmaların gücləndiyi bu zamanda Bakı müasir çağırışları sadəcə izləməklə kifayətlənmir, onları əvvəlcədən qiymətləndirərək çevik şəkildə siyasi, iqtisadi və diplomatik yollarla sabitləşdirici amillər formalaşdırır, irəli sürür. Burada əsas faktor Azərbaycanın həm Şərq, həm də Qərb ilə paralel strateji tərəfdaşlıqlar qurmasıdır. Bu əlaqələr statik deyil, dinamik xarakter daşıyır və Bakı bu dinamikanı idarə etmək bacarığı ilə qlobal səviyyədə fərqlənir. Azərbaycan və Gürcüstan arasında müxtəlif sahələrdə birgə icra olunan layihələr həm regional mövqenin daha da inkişaf etməsinə, həm də iqtisadi təhlükəsizliyinin möhkəmlənməsinə və inkişafına töhfə verməkdədir. Enerji və nəqliyyat-logistika sahələrində birgə reallaşdırdığı nəhəng layihələr nəinki ikitərəfli əməkdaşlığımızın inkişafına xidmət edir, hətta regionun hüdudlarını aşaraq qlobal enerji təhlükəsizliyi və qitələrarası nəqliyyat bağlantılarında müstəsna rol oynayır. Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi mühüm enerji layihələri Avropanın enerji təhlükəsizliyinə töhfə verir, hazırda Azərbaycan qazı 16 ölkəyə ixrac edilir ki, bu coğrafiyada tranzit başlanğıcı kimi Gürcüstanın strateji rolu mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın nefti və qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Bunun qarşılığında isə Gürcüstan məhz Azərbaycan üzərindən Şərq ilə özünün bağlantılarını yaradır, iqtisadi əlaqələrini yürüdür.

Bu əlaqələr milli təhlükəsizlik, enerji təhlükəsizliyi və iqtisadi inkişafa ciddi təkan verib. Bu gün Gürcüstan təbii qaz tələbatının 90 faizini Azərbaycan vasitəsilə təmin edir. Bu da daxili bazarda sabitlik və qiymət əlçatanlığı üçün birbaşa təminat sayılır. Bundan əlavə, Gürcüstana qoyulan sərmayələr də bu ölkənin iqtisadiyyatına ciddi təkan verir. Beləliklə, Azərbaycan Gürcüstan üçün sadəcə bir qonşu deyil, həm də onun iqtisadi dayanıqlılığını təmin edən regional strateji tərəfdaş rolunu oynayır.




### Dinamik siyasi dialoq...

İki dövlət arasında tarixi bağlılıq həm də yüksək siyasi dialoqla inkişaf etdirilir - qarşılıqlı səfərlər həm münasibətləri, həm də qarşılıqlı hüquqi qanunvericilik bazasını daha da möhkəmləndirib. İki ölkə arasında çoxsaylı müvafiq sənədlər imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı olduğu dövrdə Gürcüstana çoxsaylı səfərlər edib. Bu dövrdə Gürcüstanın rəsmi şəxsləri də dəfələrlə ölkəmizdə işgüzar və rəsmi səfərlərdə olublar. Səfərlərin intensivliyi göstərir ki, Azərbaycan-Gürcüstan münasibətləri Cənubi Qafqazda ən aktiv siyasi dialoqlardan biridir. Bu dinamika strateji tərəfdaşlıq səviyyəsini bir daha təsdiqləyir.

Bu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri isə olduqca mühüm məqamları ilə seçildi. Səfər çərçivəsində iki ölkə arasındakı iqtisadi-enerji tərəfdaşlığının yeni mərhələyə qədəm qoyması istiqamətində əsaslı irəliləyişlər müşahidə olundu. Vurğulayaq ki, Cənub Qaz Dəhlizinin əsas qollarından biri olan Bakı-Tbilisi-Ərzurum boru kəmərinin Gürcüstandan keçən hissəsinin illik ötürücülük gücü 23-24 milyard kubmetrdir. Amma Azərbaycanın son dövrlər Avropanın bir sıra dövlətlərilə təbii qazın nəqli ilə bağlı əldə etdiyi razılaşmalar bu gücün daha da genişləndirilməsini tələb edir. Bu səbəbdən də Prezidentin səfəri zamanı bu məsələyə dair texniki və hüquqi çərçivə yenilənib. Eyni zamanda Qara dəniz sualtı kabel layihəsi ilə bağlı da işlərin sürətləndirilməsinə dair sənəd imzalanıb. Azərbaycanın hasil etdiyi 4 giqavatlıq enerji də Gürcüstan vasitəsilə Avropaya ötürüləcək. Bu layihə də öz növbəsində, Cənubi Qafqaz və Avropa İttifaqı (Aİ) arasındakı enerji mənzərəsini fundamental şəkildə yenidən dizayn edəcək geostrateji dönüş nöqtəsi sayılır və regionun enerji mənzərəsini dəyişəcək. Gürcüstan da bu layihə sayəsində öz külək, su və günəş enerjisi potensialını Avropa bazarına çıxarmaq şansı qazanır. Bu cür layihələr Gürcüstanın təkcə enerji tranziti ölkəsi kimi deyil, həm də Avropanın yaşıl enerji gələcəyində əsas oyunçu kimi rolunu gücləndirəcək.

**Bu gün Cənubi Qafqaz artıq kompleks geoiqtisadi modellərin tətbiq olunduğu, təhlükəsizlik və logistik inteqrasiyanın paralel şəkildə reallaşdığı mühüm strateji platformadır. Günümüzün dinamikası göstərir ki, Avrasiyanın gələcək iqtisadi arxitekturası müxtəlif qütblər arasında rəqabət deyil, əlaqələndirmə üzərində qurulacaq. Bu mənada Azərbaycan həm Şərq istehsal sistemləri, həm də Qərb texnoloji və maliyyə mərkəzləri arasında optimal sintez yaradan unikal mövqeyə malikdir.**

### "Münaqişə regionu"ndan sabitlik və əməkdaşlıq məkanına...

Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqlar regionda təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə xidmət edir. Bu reallıqlar iqtisadi layihələrin daha təhlükəsiz mühitdə həyata keçirilməsinə imkan verir və investorlar üçün cəlbedici şərait yaradır. Gürcüstan da bu prosesdə mühüm rol oynayaraq regional əməkdaşlığın vacib halqasına çevrilib. İki ölkə arasında həyata keçirilən çoxşaxəli layihələr regionun iqtisadi xəritəsinə yeni rəng qatmaqla yanaşı, siyasi sabitliyin möhkəmlənməsinə xidmət edir. Gürcüstanda siyasi sabitliyin qorunması Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır. Bu sabitlik regionda həyata keçirilən iri layihələrin davamlılığını təmin edir və ümumi inkişaf prosesinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycan dövləti hər zaman bəyan edir ki, regional təhlükəsizlik bizim üçün 1 nömrəli məsələdir. Bu kontekstdə Gürcüstan ilə əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir - hər iki ölkə regionda sabitliyin qorunması və təhlükəsizlik mühitinin gücləndirilməsi istiqamətində oxşar mövqedən çıxış edir. Qlobal miqyasda artan gərginliklər, hətta yaxın-uzaq coğrafiyamızda baş verən qarşıdurmalar fonunda Cənubi Qafqazda sabitliyin qorunması mühüm əhəmiyyət daşıyır. Vaxtilə "münaqişə regionu" adlandırılan Cənubi Qafqaz Azərbaycanın səyi və qətiyyəti ilə sabitlik və əməkdaşlıq məkanı kimi xarakterizə olunur. Azərbaycan bu prosesdə fəal rol oynayaraq regionda yeni əməkdaşlıq formatlarının formalaşdırılmasına təşəbbüs göstərir. Gürcüstan da bu təşəbbüsləri dəstəkləyərək regional təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsini verir.

Həmçinin Azərbaycan-Gürcüstan strateji müttəfiqliyi Ermənistan üçün də sabitlik və inkişafa təminatı verir. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin paraflanması və sülh prosesinin möhkəmlənməsi bölgədə yeni əməkdaşlıq formatını təsis etməkdədir. Yekun sülh sazişi imzalandıqdan sonra Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə reallaşdırılan enerji və nəqliyyat layihələrində Ermənistanın da yer almasına səbəb olmaqla, nəticədə bölgədə nəqliyyat-logistika zəncirini daha da genişləndirəcək, Şərq və Qərb arasında yeni geosiyasi və iqtisadi coğrafiya formalaşacaq.

*P.İSMAYILOV*

# Dünyanın şəhər problemləri



## Azərbaycan paytaxtından baxış

**Azərbaycan paytaxtının böyük uğurla ev sahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) beynəlxalq birliyin diqqətini həm də dünyadakı şəhər problemlərinə yönəldib. Birdən-birə deyil, onilliklər boyunca yaranan bu problemlər sayca çox, mahiyyət etibarı ilə kifayət qədər həssas məsələlərdir. WUF13 çərçivəsində BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təqdim olunan "Dünya şəhərlərinin vəziyyətinə dair 2026-cı il hesabatı ("World Cities Report 2026): Qlobal mənzil böhranı - fəaliyyətə aparan yollar" adlı sənəddə əksini tapan statistik göstəricilər göz önündə kədərli mənzərə canlandırır. Hesabat beynəlxalq ictimaiyyətə, ölkələrin hökumətlərinə bir növ Yol Xəritəsi təqdim edir ki, dünyanın getdikcə kəskinləşən şəhər problemlərinin aradan qaldırılması üçün hansı işlər görülməlidir.**

### Qlobal məskunlaşma böhranı

Paytaxtımızda təqdim olunan sənəd qlobal məskunlaşma böhranına həsr olunub və burada əsas diqqət konkret həll yollarına yönəldilib. UN-Habitat-ın bölmə rəhbəri Benedikt Arimah təqdimat zamanı bildirib ki, hesabatda qlobal məskunlaşma sahəsində mövcud olan böhran, problemlər və çətinliklər, eləcə də bu prosesə uyğun tərəfdaşların və əməkdaşların necə cəlb olunmalı olduğu ətraflı şəkildə təhlil edilir. "Biz hesabat çərçivəsində beş əsas meyar üzərində dayanmışıq. Bunlar mənzil əlçatanlığı, qeyri-formal məskunlaşma, iqlim riskləri və dayanıqlılıq, iqlim dəyişikliklərinin təsiri, həmçinin inklüziv şəhərlərin formalaşdırılmasıdır. Bundan əlavə, hesabat daha yeddi əlavə göstəricini də özündə ehtiva edir", - deyə qurum rəsmisi vurğulayıb.

Mütəxəssislər qlobal mənzil böhranının çoxölçülü xarakter daşıdığına və struktur amillərlə şərtləndiyinə xüsusi vurğu edirlər. Bakıda təqdim olunan hesabat göstərir ki, böhranın təzahürləri demoqrafik dəyişikliklər, ekoloji təzyiqlər və dəyişən iqtisadi şərait nəticəsində daha da dərinləşir. Bu proses isə bərabərsizlik, yoxsulluq və iqlim zərbələrinə qarşı həssaslıq da daxil olmaqla, bir çox çağırışları daha da kəskinləşdirir. Hazırda dünya üzrə 3,4 milyard insan adekvat məskunlaşma imkanlarından məhrumdur. Bu, qlobal səviyyədə olduqca ciddi problemdir. Aparılan araşdırmalara görə, münasib və əlçatan mənzillərin çatışmazlığı cəmi on ildən bir qədər artıq müddətdə 30 faiz artaraq 268 milyon vahidi keçib,

Bununla yanaşı, 2040-cı ilə kimi iqlimlə bağlı təhlükələrin 167 milyon yaşayış evini yararsız hala gətirəcəyi proqnozlaşdırılır. Qeyd olunur ki, 2023-cü ildə təbii fəlakətlər 280 milyard ABŞ dolları həcmində zərərlə nəticələnib və bu itkilərin böyük qismi sığortasız olub. 2024-cü ilin sonuna olan statistik məlumata əsasən, məcburi köçkünlərin sayı 123,2 milyona çatıb ki, bu da əvvəlki onillik ilə müqayisədə iki dəfə çoxdur.

Son 20 il ərzində əlavə olaraq 64 milyon insan qeyri-rəsmi yaşayış məntəqələrindən köçkün düşüb. Məcburi köçkünlərin böyük hissəsi isə şəhərlərə - qaçqın və ya məcburi köçkün düşərgələrinə üz tutur və çox vaxt əlavə köçkünlük riski ilə üzləşdikləri təhlükəli və ya aşağı standartlı yaşayış şəraitində məskunlaşmalı olur. İnkişaf etməkdə olan ölkələrdə qeyri-rəsmi yaşayış sahələri mülki yaşayış tikintisinin təxminən 80 faizini təşkil edir. Verilən statistikaya görə, 1,1 milyard insan hələ də qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır.

Bir çox hallarda əhalinin gəlirinin 30 faizi mənzil xərclərinə sərf olunur və bəzən bu göstərici 50 faizə qədər yüksəlir. Dünyanın ayrı-ayrı regionlarında mənzil qiymətləri gəlirlərlə müqayisədə daha sürətlə artıb. Belə ki, qlobal səviyyədə qiymət-gəlir nisbəti 2010-cu ilin 9,3 göstəricisindən 2023-cü ildə 11,2-yə yüksəlib, Mərkəzi və Cənubi Asiyada isə bu göstərici 16,8-ə çatıb. 2023-cü ildə dünya üzrə mənzil krediti üçün müraciət edən şəxslərin yalnız 25,5 faizi uğurla kredit əldə edə bilib. Mənzil ipoteka bazarlarının hələ ilkin inkişaf mərhələsində olduğu Sub-Sahara Afrikasının bəzi bölgələrində isə bu göstərici cəmi 1 faiz  təşkil edib. Kirayə mənzillərin əlçatmazlığı da ən çox Sub-Sahara Afrikasında müşahidə olunur. Burada kirayədə yaşayan insanların 55 faizi ağır maliyyə yükü altındadır.

### Şəhərlər yüklənir, kəndlər boşalır

Dünya üzrə müşahidə edilən çox ciddi urban problemlərdən biri də kəndlərin sürətlə boşalması və buna adekvat olaraq şəhərlərin yüklənməsidir. Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktorunun müavini Uqoçi Daniels WUF13 çərçivəsində keçirilən "Miqrasiya və şəhərlər: Təhlükəsiz, innovativ və dayanıqlı idarəetmə çərçivəsi" adlı tədbirdə bildirib ki, bu gün miqrasiya əsasən şəhər xarakteri daşıyır və iqlim dəyişikliyi, münaqişələr, demoqrafik dəyişikliklər və artan bərabərsizliklə formalaşır".

Dünya Miqrasiya Hesabatında verilən məlumata əsasən, hazırda dünyada 300 milyondan çox  beynəlxalq miqrant var və bu, qlobal əhalinin təxminən 3,7 faizini təşkil edir. Onların iqtisadi və sosial töhfəsi isə saylarından qat-qat böyükdür. Eyni zamanda, dünya sürətlə urbanizasiya olunur və artıq dünya əhalisinin 65 faizdən çoxu şəhər mərkəzlərində yaşayır. Bu göstəricinin daha 15 faiz artacağı gözlənilir. Miqrantlar əsasən iş yerlərinin, xidmətlərin, imkanların və sosial şəbəkələrin cəmləşdiyi şəhərlərdə məskunlaşırlar. Şəhərlər isə öz növbəsində mənzil, infrastruktur, ictimai xidmətlər və sosial həmrəylik üzərində artan təzyiqlərlə üzləşirlər. "Buna görə də Beynəlxalq Miqrasiya Təşkilatı urban idarəetmə siyasətlərində inteqrasiya olunmuş miqrasiya planlaşdırılmasını, xidmət təminatını və dayanıqlılıq strategiyalarını dəstəkləyir. Miqrasiya sonradan düşünülən məsələ olmamalıdır. O, mənzil siyasətinə, ictimai nəqliyyata, iqlimə uyğunlaşmaya, ictimai səhiyyəyə və sosial inklüzivliyə inteqrasiya edilməlidir", - deyə qurum rəsmisi vurğulayıb.

Mütəxəssisin bildirdiyinə görə, urbanizasiya mövzusunun əsas mahiyyəti şəhərlərdə yaşayan dünya əhalisinin mənzil təminatıdır. Mənzil yalnız sığınacaq demək deyil. O, həm də inklüzivliyin, dayanıqlılığın və sosial həmrəyliyin təməlidir. Eyni zamanda, qlobal həllərin və məcburi köçkünlük problemlərinin qarşısının alınmasının əsas şərtlərindən biridir. Təhlükəsiz və adekvat mənzil olmadan insanlar sağlamlıq baxımından riskli və sosial cəhətdən həssas şəraitdə yaşamağa məcbur olurlar. Dünyanın müxtəlif yerlərində şəhərlər işsizlik, sürətli urbanizasiya və digər böhranların təzyiqlərini idarə etməyə çalışır, eyni zamanda, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağa çalışırlar. İzlənilən çoxsaylı problemlər böhranlara həssas urban idarəetmə yanaşmasını tələb edir ki, fövqəladə vəziyyətdən bərpa və davamlı inkişafa keçid təmin olunsun. "Məhz buna görə yerli hökumətlər çox mühüm rol oynayır. Güclü çoxtərəfli tərəfdaşlıqlarla çalışan yerli idarəetmələr miqrasiyanı daha effektiv və dayanıqlı şəkildə idarə edə bilirlər", - deyə Uqoçi Daniels vurğulayıb.

### Ölkələr üzrə fərqli mənzərə

Dünya üzrə şəhər problemləri həmçinin məskunlaşma nisbətində də özünün biruzə verir. BMT-nin İqtisadi və sosial məsələlər üzrə departamentinin şöbə müdiri, ABŞ-dan olan demoqraf və əhali məsələləri üzrə mütəxəssis Çeril Savyer Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində baş tutan "Gələcək şəhərləşmə: şəhəriniz yaxın onilliklərdə necə dəyişəcək?" adlı paneldə deyib ki, ölkələr və şəhərlər üzrə əhali sıxlığı fərqli formalarda təzahür edir. Məsələn, Yaponiyada 50 000-dən çox sakini olan şəhərlər olduğu halda, Norveçdə 200 sakini olan şəhər tipli yaşayış məntəqələri də mövcuddur. O, həmçinin 2025-ci ilə qədər ən çox əhalisi olan şəhərin Tokio olduğunu, lakin hazırda onun yerini Cakartanın tutduğunu vurğulayıb.

Mütəxəssis dünya üzrə kənd əhalisinin sayının 2040-cı ildən sonra azalmağa başlayacağını bildirib. Fikirlərinə davam edən BMT rəsmisi bildirib:  "Dünya daha çox şəhərləşmə istiqamətində hərəkət edir. Əlbəttə, dünyanın ayrı-ayrı yerlərində urbanizasiya özünü fərqli şəkildə göstərir. Amma istənilən halda, biz şəhərləşmənin ümumən sürətləndiyini deyə bilərik".

"Qarşıdakı 25 ildə dünya üzrə şəhər əhalisinin artımının yarısı yeddi ölkənin payına düşəcək. Belə ki, Hindistan, Nigeriya, Pakistan, Konqo Demokratik Respublikası, Misir, Banqladeş və Efiopiya birlikdə 2025-2050-ci illər arasında 500 milyondan çox yeni şəhər sakini əldə edəcək. Bu rəqəm həmin dövr üzrə proqnozlaşdırılan 986 milyonluq qlobal şəhər əhalisi artımının yarısından çoxuna müvafiq gəlir". Bu məlumatı isə BMT-nin Əhali Bölməsinin nümayəndəsi Şeril Soyyer WUF13 çərçivəsində keçirilən "Gələcək urbanizasiya: şəhəriniz növbəti onilliklərdə necə dəyişəcək?" mövzusunda paneldə BMT-nin 2025-ci il üzrə "Dünya Urbanizasiya Proqnozları"nı təqdim edərkən verib.

Eyni zamanda, dünya üzrə 3.000-dən çox şəhərdə 2015-2025-ci illər arasında əhali azalması müşahidə edilib. Bu şəhərlərin üçdə birindən çoxu Çinə, 17 faizi isə Hindistana aiddir. Hesabata görə, şəhərlərin böyüklüyü onların əhali artımına zəmanət vermir: Mexiko və Çendu kimi iri şəhərlər belə əhali azalması ilə üzləşib.

### Kiçik ada dövlətləri ölüm, ya qalım dilemması ilə üz-üzə

Dünyanın şəhər problemlərindən bəhs edərkən kiçik ada dövlətlərinin (SIDS) acınacaqlı durumuna xüsusi diqqət çəkilməlidir. WUF13 çərçivəsində baş tutan ayrı-ayrı tədbirlərdə vurğulandığı kimi, qlobal iqlim dəyişmələrindən bütün dünya təsirlənir. Okeanda dörd bir tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətlərində isə vəziyyət daha ciddidir. Okeanın ortasında bol su heç də xoşbəxtlik anlamında qəbul olunmur. Dəniz səviyyəsinin qalxması bu ölkələrin ərazilərinin kiçilməsi ilə nəticələnir. Burada təbii fəlakətlər tez-tez təkrarlanır. Məsələn, Tahada vulkan püskürməsi və sunami baş verib. Bu hadisələr sahilyanı sərhədlərin geriyə çəkilməsini şərtləndirib və sahil mühafizəsi nöqteyi-nəzərindən vəziyyəti mürəkkəbləşdirib. "Səyahətçilər klubu"nun yaydığı hesabatda iqlim dəyişmələrinin yaratdığı problemin qarşısının alınmayacağı təqdirdə  2070-ci ildə paytaxt şəhər Nassau və adaların hansı vəziyyətdə olacağı nümayiş etdirilib. Adanın 30 faizi suyun altında qalacaq. 2100-cü ildə isə 70 faiz su altında qalacaq. Beləliklə, sürətli iqlim dəyişmələri fonunda kiçik ada dövlətləri olum, ya qalım dilemması ilə üzüzədirlər.

Belə vəziyyətdə beynəlxalq birliyin həmrəyliyi çox vacibdir. Kiçik ada dövlətlərinin əksəriyyəti məhdud quru ərazilərə malikdirlər. Bu kiçik ərazilərin ətrafdakı suların səviyyəsinin yüksəlməsindən mühafizəsi isə onların imkanları xaricindədir. Burada xüsusilə də inkişaf etmiş, güclü sənaye potensialına malik ölkələrin məsuliyyəti ön plana keçir. Axı məhz onların sənaye fəaliyyətlərini intensivləşdirmələrinin nəticəsi olaraq sürətli iqlim dəyişmələri baş verir və kiçik ada dövlətləri də bundan böyük dərəcədə təsirlənirlər.

### Azərbaycanın həssas yanaşması

Məsuliyyətli dövlət olan Azərbaycan kiçik ada dövlətlərinin vəziyyətinə həssaslıqla yanaşır. Ölkəmiz həm Qoşulmama Hərəkatına (QH) sədrliyi dönəmində,  həm də 2024-cü ilin noyabrında böyük uğurla ev sahibliyi etdiyi COP29 tədbirində qətiyyətli siyasi iradə ortaya qoymaqla kiçik ada dövlətlərinin problemlərini beynəlxalq gündəliyə çıxarmağa nail olub. Azərbaycana ümid yeri kimi baxan kiçik ada dövlətlərinin təmsilçiləri 2024-cü ilin may ayında qlobal iqlim məsələlərini, o cümlədən COP29-la bağlı prioritetlərini müzakirə etmək məqsədilə Azərbaycanda səfərdə olublar. Bu səfər çərçivəsində Bakı Kommünikesi qəbul edilib. Bakı Kommunikesində  intensivləşən iqlim dəyişikliyinin yaratdığı təhdidlərə xüsusi diqqət çəkilib. Sənəddə iqlim dəyişmələrinin qaçılmaz təsirlərinin insanların yaşayışı, təhlükəsizliyi və rifahı üçün Dayanıqlı İnkişaf Məqsədlərinin, BMT-nin İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasının və Paris sazişinin məqsədlərinin həyata keçirilməsinə birbaşa təhdid olduğu bildirilir. COP29 çərçivəsində isə Bakıda inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammiti keçirilib. Prezident İlham Əliyev sammitdəki çıxışında iqlim dəyişmələrinin kiçik ada dövlətləri üçün ekzistensial təhlükə olduğunu vurğulayaraq qətiyyətlə bildirib ki, həmin dövlətlərin səsi qlobal arenada eşidilməlidir. Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Respublikamız fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardımlar  göstərib, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək verib. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramından yararlanıb. Azərbaycan Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Eyni zamanda, həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edib. Bakıda inkişaf etməkdə olan ölkələrin əsas gözləntisi - "Yeni Kollektiv Kəmiyyət Hədəfi" üzrə konsensus əldə olunub. COP29-da qəbul edilən qərara əsasən, 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən iqlim maliyyəsinin illik hədəfi 1,3 trilyon ABŞ dolları səviyyəsində müəyyən edilib. Eləcə də, COP29-da İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması maliyyə inklüzivliyinə ehtiyacı olan ölkələr, o cümlədən də kiçik ada dövlətləri üçün böyük nailiyyətdir.

***Mübariz ABDULLAYEV***

# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib





Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.

Görüşdə dövlət başçılarının məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Çin münasibətlərinin dostluq və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib.

Mayın 17-də Bakıda öz işinə başlayan və Çinin yüksəksəviyyəli nümayəndə heyətinin də təmsil olunduğu BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının qlobal urbanizasiya gündəliyi ilə əlaqədar aktual mövzuların müzakirəsi və beynəlxalq müstəvidə dayanıqlı şəhərsalma siyasətinin təşviqi baxımından əhəmiyyəti qeyd olunub. Forum çərçivəsində mayın 18-də Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçi arasında keçirilən görüşün əhəmiyyəti vurğulanıb. Separatizmin bütün forma və təzahürlərini pisləyən Azərbaycanın “Vahid Çin” siyasətinə, həmçinin Çinin ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstəyinin müstəsna önəm daşıdığı qeyd edilib.

Görüş zamanı YAP ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin sürətli inkişafından məmnunluq ifadə olunub. 2024-cü ilin noyabrında hakim partiyalar arasında imzalanmış Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib.

2026-cı il 11-15 may tarixində YAP nümayəndə heyətinin dost ölkəyə səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin həm partiyalar, həm də dövlətlər arasında münasibətlərin inkişafına xidmət etdiyi vurğulanıb. Təmasların intensivləşdirilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin və birgə layihələrin həyata keçirilməsinin önəminə diqqət çəkilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səfər zamanı göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Çin Kommunist Partiyasının rəhbərliyinə və səfirə təşəkkürünü bildirib. O, əməkdaşlığın dərinləşdirilməsinə hədəflənən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində bundan sonra da ardıcıl nailiyyətlərin qazanılacağına inamını ifadə edib.

Səfir Lu Mey YAP nümayəndə heyətinin səfərlə bağlı xoş təəssüratlarının məmnunluq doğurduğunu diqqətə çatdırıb. Çinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edən səfir qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadənin vacibliyinə toxunub.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov isə səfər çərçivəsində DİA ilə ÇKP Mərkəzi Komitəsinin Ali Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi və kadr hazırlığı sahəsində əhəmiyyətini nəzərə çatdırıb.

Görüşdə cari ildə nəzərdə tutulan tədbirlər, partiyalararası əməkdaşlığın gələcək istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# WUF13 -ün qalıcı irsi - “Bakı Şəhərsalma Mükafatı”




## Azərbaycanın qlobal şəhərsalma və iqlim gündəliyinə sadiqliyinin təzahürüdür

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Hökuməti və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) dayanıqlı şəhər inkişafı sahəsində yeni qlobal mükafat - “Bakı Şəhərsalma Mükafatı” təsis edib. Bakı Şəhərsalma Mükafatı uzunmüddətli sosial, iqtisadi və ekoloji təsir potensialına malik praktik şəhər həllərinin beynəlxalq səviyyədə təşviqinə yönəlmiş qlobal platforma kimi formalaşdırılır.

Mükafat Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) əsas qalıcı irsindən biri olacaq. Mükafat forum çərçivəsi ilə məhdudlaşmayaraq, qlobal şəhər gündəliyinin uzunmüddətli təşviqinə xidmət edən beynəlxalq mexanizm kimi nəzərdə tutulur. Təşəbbüs üç əsas istiqamətin birləşdirilməsini nəzərdə tutur: Şəhərsalma mütəxəssisləri tərəfindən artıq tətbiq olunan praktik həllər; ekspert bilikləri və elmi əsaslandırılmış yanaşmalar; uğurlu təcrübələrin milli və beynəlxalq siyasətə inteqrasiyası. Qiymətləndirilmə memarlıq, şəhərsalma, mənzil təminatı, iqlim dayanıqlılığı, maliyyə və vətəndaş cəmiyyəti sahələrində aparıcı beynəlxalq ekspertlərdən ibarət müstəqil münsiflər heyəti tərəfindən həyata keçiriləcək. Mükafat dünyanın bütün regionlarını təmsil edən iştirakçılar üçün açıq platforma olacaq.

“Bakı Şəhərsalma Mükafatı”nın təsis olunması Azərbaycanın qlobal şəhərsalma və iqlim gündəliyinə uzunmüddətli sadiqliyinin növbəti təzahürüdür. Bu istiqamətdə həyata keçirilən təşəbbüslərə COP29-a ev sahibliyi, “Dayanıqlı və Sağlam Şəhərlər üçün Multisektoral Fəaliyyət Yolları (MAP)” və “Bakı Davamlılıq Koalisiyası” təşəbbüslərinin irəli sürülməsi, UN-Habitat-ın “Hər kəs üçün münasib mənzil” üzrə Açıq Hökumətlərarası İşçi Qrupuna həmsədrlik , eləcə də WUF13-ə Bakının ev sahibliyi etməsi daxildir.

Nəzərə alaq ki, Azərbaycanın UN-Habitat ilə əməkdaşlığı 2022-ci ildə Azərbaycan Milli Şəhərsalma Forumunun təsis edilməsindən etibarən ardıcıl şəkildə inkişaf edir. Bu əməkdaşlıq çərçivəsində şəhərsalmanın inkişafı sahəsində birgə layihələr həyata keçirilir. Buraya həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında üç Milli Şəhərsalma Forumunun təşkili, eləcə də 2023-cü ildə Bakıda Ümumdünya Məskunlaşma Günü münasibətilə keçirilmiş tədbirlər daxildir.

Qeyd edək ki, mükafatın təsis olunması münasibətilə keçirilən tədbirdə çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax WUF13-dəki yeniliklərin, burada real həyat nümunələri ilə nümayiş etdirilən təcrübələr toplusunun, həmçinin yeni təsis edilən “Bakı Şəhərsalma Mükafatı”nın ümumi səylərin davam etdirilməsinə mühüm töhfə verəcəyini bildirib. “Biz inanırıq ki, Ümumdünya Şəhərsalma Forumunun bu yeniliyi, eləcə də artıq mövcud olan və burada real həyatda nümayiş etdirilən təcrübələr toplusu, həmçinin yeni təsis edilən “Bakı Şəhərsalma Mükafatı” səylərimizi davam etdirməyə töhfə verəcək”, - deyən Anaklaudia Rossbax deyib. O deyib ki, növbəti Ümumdünya Şəhərsalma forumlarında və ondan sonrakı dövrdə biz təcrübələri toplamağa davam edə bilərik: “Onları forum çərçivəsinə gətirməyi davam etdirə bilərik, lakin ən önəmlisi həmin təcrübələri hər kəs üçün əlçatan ictimai bir xeyir kimi təqdim etməkdir. Bu fürsətdən istifadə edərək Bakıda bu mükafatı təqdim edir və bildiririk ki, UN-Habitat Azərbaycan Hökuməti ilə və bu prosesdə bizə dəstək olacaq yüksəksəviyyəli kuratorlar qrupu ilə əməkdaşlığa sadiqdir”.




WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev “Bakı Şəhərsalma Mükafatı”nın əksər hallarda bir-birindən ayrı şəkildə fəaliyyət göstərən üç mühüm amili əlaqələndirmək məqsədi daşıdığını bildirib: “Bura birincisi, təcrübə - merlərin və mütəxəssislərin artıq işləyib hazırladığı real həll yolları; ikincisi, bilik - bu həllərin effektivliyinə dair ciddi sənədləşdirmə və üçüncüsü, siyasət - qazanılmış təcrübənin hökumətlər, beynəlxalq qurumlar, eləcə də Qlobal Şəhərsalma Gündəliyi tərəfindən tətbiqi daxildir. Mükafatın hər bir mərhələsi sadəcə təltifetmə mərasimi ilə yekunlaşmayacaq, öyrənmə, potensialın gücləndirilməsi və təcrübənin yenidən tətbiqi üçün fəal dəstək mexanizmləri ilə davam etdiriləcək. Bu mükafat yalnız uğurlu həll yollarını təqdir etmək deyil, həm də onların miqyasını genişləndirmək məqsədi daşıyır”.

Tədbirə ünvanladığı videomüraciətində tanınmış britaniyalı memar Norman Foster şəhər merləri, yerli idarəetmə orqanlarının rəhbərləri və vətəndaş cəmiyyəti liderlərinin “Bakı Şəhərsalma Mükafatı”nın əsas fəlsəfəsini təşkil edən dayanıqlı şəhərsalma və mənzil təminatı vasitəsilə müsbət dəyişikliklərə imza ata biləcəklərini vurğulayıb. “Buna görə də “Bakı Şəhərsalma Mükafatı”nın münsiflər heyətinə üzv qismində dəvət olunmaqdan şərəf duyuram. Bu çox vacib tədbirə yüksək səviyyədə ev sahibliyi etdiklərinə görə BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) və Bakı Şəhər İcra Hakimiyyətinə dərin ehtiramımı bildirirəm”, - deyə Norman Foster əlavə edib.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Xarici əlaqələr, strategiya, bilik və innovasiya departamentinin direktoru Edlam Yemeru bu təşəbbüsdə Azərbaycan hökuməti ilə əməkdaşlıq etməkdən böyük məmnunluq və şərəf duyduğunu bildirib: “Biz burada mənzil təminatı və şəhərsalma məsələlərini müzakirə edirik. Odur ki, bura sözügedən mükafatın təqdim olunması üçün ən doğru məkandır. Bu mükafat digər qlobal təşəbbüslərlə də bağlıdır”. O, bu təşəbbüsün WUF-un əsas prioritetlərindən birinə çevriləcəyinə ümidvar olduğunu bildirib. “Ümid edirik ki, bu platforma 2028-ci ildə Meksikada keçiriləcək növbəti WUF-un da ayrılmaz hissəsini təşkil edəcək”, - deyə Edlam Yemeru diqqətə çatdırıb.

***Nardar BAYRAMLI***

# “Yaşıl enerji” gündəliyi Azərbaycan masasında...

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında müasir inkişafın atributlarından biri olan bərpaolunan enerji mənbələrindən səmərəli istifadə və enerjinin “ağıllı tədarükü” kimi məsələlər də əsas diqqətçəkən mövzulardan biri kimi yadda qalmaqdadır. Tədbirdə iştirak edən dünyanın aparıcı təşkilatlarının və şirkətlərinin nümayəndələrinin çıxışlarından da aydın görünür ki, “yaşıl enerji” istehsalı müasir urbanizasiyanın vacib elementi kimi çıxış edir, şəhər arxitekturasının dayanıqlı mənbələrindən birinə çevrilməkdədir. Bu baxımdan WUF13 çərçivəsində Azərbaycan hökuməti ilə dünyanın nüfuzlu institutları arasında Bakıda aparılan müzakirələr “yaşıl enerji” tədarükünün aktuallığını ön plana çıxarır, regional enerji zonasının genişlənməsinə dəstək verir. Bu, həm də ölkəmizin iqlim dəyişikliyi və ətraf mühitin qorunması, eləcə də “yaşıl iqtisadiyyat”ın güclənməsi ilə bağlı qlobal həmrəyliyin artmasında fəal təşəbbüskarlığını nümayiş etdirir, yeni “yaşıl sərmayələrin” təşviqinə impuls verir.**

## WUF13 çərçivəsində dünyanın nüfuzlu təşkilatları ilə “yaşıl enerji” əməkdaşlığına dair müzakirələr aparılıb





### Dünya Bankı bərpaolunan enerji sektoruna sərmayələr yönəldir

Bu cür faydalı fikir mübadilələri iki nəhəng maliyyə təsisatı - Dünya Bankı (DB) və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) heyətinin üzvləri ilə keçirilən görüşlərdə də əlamətdarlığı ilə seçilib. Energetika naziri Pərviz Şahbazovun

Dünya Bankı Qrupunun infrastruktur üzrə vitse-prezidenti Valeri Levkovun iştirakı ilə keçirilən görüşündə dənizdə külək enerjisi layihələri, “ağıllı şəbəkə” texnologiyalarının tətbiqi və batareya enerji saxlama sistemləri (BESS) üzrə əməkdaşlıq məsələləri müzakirə olunub. Həmçinin, elektrik şəbəkələrinin modernləşdirilməsi, enerji səmərəliliyi və regional enerji bağlantıları sahəsində əməkdaşlığın genişləndirilməsinə diqqət çəkilib, Dünya Bankının tərəfindən bu istiqamətlərdə Azərbaycana dəstək göstərməyə hazır olduğu vurğulanıb.

Bu, Azərbaycan ilə Dünya Bankı arasında bərpaolunan enerji layihələrində müxtəlif istiqamətlər üzrə uğurlu əməkdaşlığın formalaşdığını və yeni perspektiv layihələrdə birgə iştirakçılığın genişlənəcəyini təsdiqləyir. Azərbaycanın enerji sahəsində həyata keçirdiyi proqramların, xüsusilə ötürücü şəbəkənin gücləndirilməsi, regional enerji inteqrasiyası və enerji səmərəliliyi istiqamətində görülən işlər DB tərəfindən yüksək dəyərləndirilir.

### ESCO modeli özəl sektora gəlir əldə etmək imkanı yaradacaq

V. Levkovun da xatırlatdığı kimi son illərdə qlobal enerji sektorunda əsas çağırışlardan biri ötürücü şəbəkələrin dayanıqlılığı və bərpaolunan enerji güclərinin sistemə inteqrasiyasıdır. Bu baxımdan Azərbaycanın ötürücü şəbəkənin genişləndirilməsi və modernləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər düzgün və strateji yanaşma kimi qiymətləndirilə bilər. “Yaşıl enerji” mənbələrinin şəbəkəyə inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi layihəsi isə daha effektli infrastruktur qurmağa imkan verəcək. Bank ötürücü və paylayıcı şəbəkələrin modernləşdirilməsi, regional interkonnektor layihələri və “Bərpa olunan Enerji Mənbələrinin Şəbəkəyə İnteqrasiyası (AZURE)” layihəsində Azərbaycana maliyyə təchizatı göstərəcək ki, bu da ESCO (Energy Service Company) modeli və enerji saxlanc sistemlərinin qurulmasını təmin edəcək. ESCO modelinin həyata keçirilməsi özəl sektorun enerji qənaəti hesabına gəlir əldə etməsinə imkan verəcək ki, bu model Azərbaycan və region ölkələri üçün faydalı ola bilər.

Qeyd edək ki, bir müddət əvvəl Azərbaycan hökuməti ilə Dünya Bankı (DB) arasında “Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsi” çərçivəsində ümumi dəyəri 173,5 milyon dollar olan kredit sazişi imzalanıb. İcra müddəti 4 il olan layihənin əsas məqsədi “AzərEnerji”nin enerji sisteminin səmərəliliyini artırmaq və növbəti 5 ildə bərpaolunan enerji mənbələrinin (BOEM) elektrik ötürücü şəbəkəyə təhlükəsiz inteqrasiyasını dəstəkləməkdir. Kredit vəsaiti Azərbaycanda tikilməkdə olan BOEM üzrə stansiyalardan alınan enerjinin milli enerji sisteminə təhlükəsiz və dayanıqlı inteqrasiyasını təmin etmək məqsədilə enerji ötürücü infrastrukturun gücləndirilməsinə yönəldiləcək.

Dünya Bankı Azərbaycanın regional enerji bağlantıları üzrə təşəbbüslərini də dəstəkləyərək Qara dəniz və Şərqi Avropa istiqamətində Yaşıl Enerji Dəhlizi layihəsi üzrə texniki-iqtisadi əsaslandırma işlərinin vəziyyətini müsbət dəyərləndirib. Bank hesab edir ki, “Azərbaycan - Mərkəzi Asiya”, eləcə də “Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan” interkonnektor layihələri qlobal enerji sistemində yeni potensial mənbə blokları formalaşdıracaq.

### Avropa Bankının “yaşıl həmrəyliyə” dəstəyi

WUF13 çərçivəsində “yaşıl enerji” üzrə digər faydalı görüş Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Dayanıqlı İnfrastruktur Qrupunun idarəedici direktoru Harri Boyd-Karpenter arasında keçirilib. Azərbaycanın energetika naziri ilə Karpenter enerji sektorunda əməkdaşlığın genişləndirilməsi, bərpaolunan enerji mənbələrinin inkişafı və regional enerji bağlantıları üzrə layihələr barədə fikir mübadilə aparıb. Azərbaycanın bərpa olunan enerji sahəsində artan potensialı və bu istiqamətdə qarşıya qoyulan strateji hədəflər diqqətə çatdırılıb. Bildirilib ki, ölkədə 2035-ci ilədək 8 QVt daxili istehlak və ixrac məqsədilə bərpaolunan enerji gücünün yaradılması planlaşdırılır. Məlumat mərkəzlərinin elektrik enerjisinə tələbatı artırması çərçivəsində növbəti illərdə əlavə bərpaolunan enerji güclərinin milli enerji sisteminə inteqrasiyası məqsədilə şəbəkənin təhlili aparılır.

Avropa Yenidənqurma və İnkişaf Bankı da hazırda Azərbaycanda bərpaolunan enerji sektorunda layihələrə maliyyə dəstəyi verən institutlardan biridir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kredit ayıracaq.

AYİB regional enerji interkonnektor layihələri “Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan”, “Xəzər-Qara dəniz-Avropa”, “Azərbaycan-Mərkəzi Asiya” enerji dəhlizlərinin qlobal enerji təhlükəsizliyinin möhkəmlənməsində əhəmiyyətinə xüsusi önəm verərək bu istiqamətdə dayanıqlı dəstək vermək niyyətini bəyan edib.

“Qara dəniz kabeli” adlanan bu meqa layihə Azərbaycanın külək və günəş enerjisi stansiyalarından əldə edilən “yaşıl enerji”nin Avropaya nəqlini nəzərdə tutduğundan AYİB “enerji həmrəyliyi halqası”nda fəal yer almaq istəyir. Bank Naxçıvan və Ermənistandan keçməklə Türkiyə istiqamətində ötürücü xətlər üzrə layihələrdə də Azərbaycanla yaxın tərəfdaşlıq edəcəyini açıqlayıb.

Beləliklə, WUF13 platforması şəhərsalmanın inkişafı ilə bağlı dialoqun güclənməsinə töhfə verməklə bərabər, qlobal enerji ailəsinin “yaşıl enerji” üzrə həmrəyliyinin artmasında da əhəmiyyətli sessiya kimi xarakterizə oluna bilər. Bu tədbir “yaşıl enerji” layihələrinin irəliyə aparılmasında beynəlxalq investorlar icmasının daha da fəal işgüzarlığı, enerji ixrac imkanlarının genişləndirilməsi və regional enerji təhlükəsizliyinin gücləndirilməsində vacib koalisiya qurmasına təkan verəcək.

**_E.CƏFƏRLİ_**

# İlk milli dayanıqlı inkişaf standartı hazırlanır

## Sənəd dövlətin mühüm strateji niyyətini və inteqrasiya planlarını əks etdirir

Azərbaycanın ilk milli dayanıqlı inkişaf standartının hazırlanması mühüm mərhələdir. Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində təşkil olunan “Azərbaycanın ilk milli dayanıqlı inkişaf standartının hazırlanması: Dayanıqlı Təcrübələr Standartı (SPS)” mövzusunda panel müzakirəsində videomüraciəti zamanı deyib. Qeyd edib ki, Azərbaycan dayanıqlı şəhər inkişafına, ekoloji məsuliyyətə və iqlim dayanıqlılığına xüsusi önəm verir. Dayanıqlı inkişaf standartının hazırlanması dövlətin mühüm strategiya və bəyannamələrdəki niyyətini və bütün sektorların planlaşdırma, layihələrin idarə olunması və gündəlik institusional fəaliyyət proseslərinə inteqrasiya planlarını əks etdirir.

### Dövlət, biznes və vətəndaş cəmiyyətinin koordinasiyalı əməkdaşlığı

Dayanıqlı inkişaf standartı əməliyyat səviyyəsində davamlılıq təcrübələrinə yönəlmiş və milli səviyyədə tətbiq oluna bilən çərçivə kimi EkoSfera Sosial-Ekoloji Mərkəz tərəfindən hazırlanır. SPS qlobal davamlılıq çərçivələri ilə yerli tətbiq reallıqları arasındakı boşluğu aradan qaldırmaq məqsədilə yaradılıb. Beynəlxalq standartlar mühüm meyarlar təqdim etsə də, bir çox yerli tərəflər milli və yerli şəraiti əks etdirən, əlçatan və kontekstə uyğun alətlərə ehtiyac duyur. SPS bu ehtiyaca cavab olaraq davamlılığın konkret bir məkanda gündəlik əməliyyatlarda necə tətbiq olunduğunu qiymətləndirir və abstrakt öhdəliklərə və ya yalnız müəyyən sektorlara aid etiketlərə fokuslanmır.

Dövlət, biznes və vətəndaş cəmiyyətinin koordinasiyalı əməkdaşlığına əsaslanan bu standart həm də “yaşıl maliyyələşmə” və ekoloji məsuliyyət prinsiplərini dəstəkləyir. Həmçinin kiçik və orta sahibkarlıq subyektləri, restoran və kafelər, mədəniyyət müəssisələri və muzeylər, fermer təsərrüfatları və kənd təsərrüfatı müəssisələri, xidmət təminatçıları, ictimai və icma məkanları, həmçinin mühafizə olunan təbiət ərazilərinə bitişik ərazilər daxil olmaqla geniş spektrli qurumlara tətbiq edilir. SPS yalnız hotellər və ya turizm sektoru ilə məhdudlaşmır və müxtəlif sahələrdə davamlılıq təcrübələrinin inkişafını dəstəkləmək üçün nəzərdə tutulub.

Beynəlxalq təcrübə göstərir ki, idarəetmə standartları effektiv institusional modellər kimi geniş tətbiq olunur. Eyni zamanda, ekoloji, sosial və korporativ idarəetmə yanaşmaları getdikcə həm dövlət, həm də özəl sektorun qərarvermə proseslərinə inteqrasiya edilir və davamlılıq ölçüləbilən və hesabatlılığa əsaslanan idarəetmə çərçivəsinə çevrilir. Eyni zamanda, dayanıqlı inkişafı mücərrəd konsepsiyadan ölçülə bilən və praktiki fəaliyyətə çevirməyə kömək edir, həmçinin həm dövlət, həm də özəl sektorda hesabatlılığın artırılmasına, institusional potensialın gücləndirilməsinə və resurslardan daha səmərəli istifadəyə töhfə verir.

Bu baxımdan Azərbaycanın ilk milli dayanıqlılıq təşəbbüslərinin və davamlı təcrübə standartlarının inkişafı xüsusi diqqətə layiqdir.




### ESG prinsiplərinə uyğunlaşmaq üçün keçid

Dayanıqlı inkişaf standartı yerli təşkilatlara ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinə uyğunlaşmaq üçün keçid aləti rolunu da oynayır. Platforma bizneslərin cari vəziyyəti, dayanıqlılığı, ESG hesabatlılığı üzrə indikator və məlumatları təmin etməklə, xarici investorların cəlb edilməsinə xidmət edir ki, tərəfdaşlar ESG ilə əlaqəli xidmətlərini bu platforma üzərindən biznes subyektlərinə təqdim edərək təcrübəli mütəxəssis və peşəkar şirkətlərə çıxış imkanı qazanırlar. Dövlət standartı müəssisə və təşkilatlarda müasir biznes mühitində dayanıqlı inkişafı dəstəkləmək və sosial məsuliyyəti təşviq etmək üçün çərçivə təqdim edir. Dövlət və özəl sektorlarda dayanıqlı inkişafı dəstəkləməklə yanaşı, müştəri məmnuniyyətini artırmaq, riskləri azaltmaq və sosial məsuliyyətin artırılması baxımından müsbət təsir göstərir.

### İpoteka sistemi inkişaf standartına müsbət fayda verir

Dayanıqlı inkişaf standartı həm də sosial məzmun daşımaqla, insanların zəruri həyat ehtiyaclarının həllini nəzərdə tutur. Sözsüz ki, bura mənzil təminatı və sosial xidmətlərə əlçatanlıq da əsas prinsiplərdən biridir. Maliyyə nazirinin müavini, İpoteka və Kredit Zəmanət Fondunun Müşahidə Şurasının üzvü Anar Kərimovun fikrincə, ölkəmizdə bu istiqamətdə institusional mexanizmlərdən biri olan ipoteka sistemi öz müsbət faydasını göstərməkdədir. İpoteka və Kredit Zəmanət Fondu ilə yanaşı, həssas qruplara güzəştli şərtlərlə mənzillər təqdim edən Dövlət Mənzil İnşaatı Agentliyi məskunlaşma üçün fəal rol oynayır. Bundan başqa, mənzil siyasətində “yaşıl maliyyələşmə” mühüm yer tutur ki, bu, təkcə sosial birlik siyasəti deyil, həm də istehsalat, məşğulluq, infrastruktur və şəhərsalma sahələrində multiplikativ effekt yaradır. İnkişaf standartına daxil olan bu alətlər “yaşıl istiqraz”lar, “yaşıl taksonomiya” çərçivələri, rəqəmsal kadastr sistemləri, “yaşıl tikinti” standartları əsasında qarşıya qoyulmuş hədəflərə çatmağa imkan verir.

Ümumilikdə, güclü dayanıqlılıq standartlarının hazırlanması və tətbiqi ölkənin bütün infrastruktlarının əsaslı şəkildə qurulmasına, resurslardan səmərəli istifadəyə, “yaşıl iqtisadiyyat”ın inkişafına, daha dayanıqlı şəhər planlaşdırılmasına, həmçinin məsuliyyətli istehsal və istehlak modellərinin formalaşmasına töhfə verəcək.

**_E.CƏFƏRLİ_**

# Seçki qarşıdurması genişlənir

Ermənistanda iyunun 7-də baş tutacaq parlament seçkiləri öncəsi vəziyyət daha da kritik hal almaqdadır. Qeyd edək ki, mayın 8-dən başlayaraq rəsmən start götürən seçki kampaniyası iyunun 5-nə qədər davam edəcək. Mərkəzi Seçki Komissiyası seçkilərdə iştirak üçün 19 siyasi qüvvəni qeydiyyata alıb. Siyahıda Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" Partiyası, Qaqik Sarukyanın sədri olduğu "Çiçəklənən Ermənistan" Partiyası, Qurgen Simonyanın başçılıq etdiyi "Şnorhapetakan Hayastan" Partiyası, Spartak Kyuregyanın rəhbərlik etdiyi "Mən Hamıya Qarşıyam" Demokrat Partiyası, Samvel Karapetyanın lideri olduğu "Güclü Ermənistan" Bloku ("Güclü Ermənistan", "Yeni Era", "Birləşmiş Ermənilər" partiyaları), Arman Tatoyanın sədrlik etdiyi "Birlik Qanadları" Partiyası, Robert Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" Partiyalar Bloku, Aram Sarqsyanın rəhbəri olduğu "Respublika" Partiyası və digərləri yer alırlar.

## Moskva xüsusi plan hazırlayır?

Siyahıda 19 partiyanın təmsil olunmasına baxmayaraq, siyasi analitiklər əsas mübarizənin Paşinyan - Karapetyan - Köçəryan üçlüyünün arasında gedəcəyini bildirirlər. Seçikqabağı situasiya da bundan xəbər verir. Belə ki, bu və ya digər amillərə görə Rusiyaya bağlı olduğu bildirilən son iki siyasi qüvvə hazırkı hakimiyyətə qarşı bütün resurslardan istifadə edir. Revanşist siyasi dairələri təmsil edən bu iki qüvvə ilə bağlı məsələ olduqca gərgin hal alıb. Hətta baş nazir Nikol Paşinyan seçkilərdə Rusiyanın ona qarşı kampaniya aparması ilə bağlı açıqlama verib. Yeri gəlmişkən, Qərb mediası da bununla bağlı mühüm xəbərlər yaymaqdadır. Belə ki, "The Insider" xəbər verir ki, Kreml siyasətçiyə qarşı informasiya kampaniyasına başlayıb. Xəbərə görə, bu kampaniyanı Rusiya Prezidentinin Strateji Tərəfdaşlıq və Əməkdaşlıq İdarəsi əlaqələndirir. Moskva Avropa İttifaqı və ABŞ ilə yaxınlaşma kursuna başlayan Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyasının Ermənistandakı parlament seçkilərində qalib gəlməsinin qarşısını almağa çalışır. Nəşrin məlumatına görə, Paşinyana qarşı kampaniyanı əvvəllər Dmitri Kozakın (Moldovadakı uğursuzluğundan sonra vəzifəsindən azad edilib - red.) rəhbərlik etdiyi Mədəni Əlaqələr İdarəsinin yerinə yaradılan yeni Prezident Strateji Tərəfdaşlıq və Əməkdaşlıq İdarəsi (USPS) əlaqələndirir. USPS-ə keçmiş nüvə alimi Vadim Titov rəhbərlik edir. Prezident Administrasiyasında erməni istiqamətinin birbaşa nəzarətçiləri ABŞ Təhlükəsizlik Xidməti şöbəsinin müdiri Valeri Çernışov və onun müavini Dmitri Avanesovdur. Hər ikisinin kəşfiyyat xidmətlərində təcrübəsi var (Çernışov QRU kurslarında sabotajın əsaslarını tədris edib, Avanesov isə FSB İnstitutunda təhsil alıb). Paşinyan əleyhinə kampaniyada Kremlyönlü strukturlar iştirak edir. Buraya bir sıra fondlar və tanınmış iş adamları daxildir. "The Insider" qəzetinin məlumatına görə, Kreml həmçinin iki müxalifət blokunu dəstəkləyir. Biri oliqarx Samvel Karapetyanın "Güclü Ermənistan Bloku", digəri isə Qaqik Çarukyandır. "The Insider" qəzetinin məlumatına görə, bu layihələrin maliyyələşdirilməsi Rusiya Prezident Administrasiyasının xüsusi fondlarından gəlir.



## Paşinyan Rusiyanı ittiham edir - Moskva isə...

Bu iddialara Moskvanın reaksiyası qəti olub - Kreml irəli sürülən iddiaları rədd edib. Moskvanın Er-

## Zaxarova Paşinyanı "hədəf" göstərir...

mənistanın baş naziri Nikol Paşinyana qarşı kampaniya başlatması xəbərini şərh edən Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Paşinyanın öz vətəndaşlarına qarşı rəftarına diqqət yetirməyə çağırış edib. Diplomat bildirib ki, "Paşinyanın sadəcə qışqırdığı Ermənistan vətəndaşlarına dediyi kimi, küncdəki tualetdə başına vurulmadığına görə "minnətdar olmalı" qadına; nəvəsi ölən və Paşinyanın çağırışı ilə mitinqə gəlib sual verən və 550 dollara iştirak etməkdə ittiham olunan kişiyə" diqqət yetirilməlidir. "Bu vəziyyət Rusiyaya zorla tətbiq edildikdə, kinsizliyin həddi varmı? Rusiyanın bununla nə əlaqəsi var?"

Qeyd edək ki, mayın 17-də Paşinyanın İrəvanın Arabkir rayonu sakinləri ilə seçki kampaniyası görüşü zamanı Qarabağ müharibəsi zamanı itkin düşmüş hərbi həkimin bacısı Paşinyana yaxınlaşaraq onu vətəninə xəyanət etməkdə və bütün gənc nəsli məhv etməkdə və uşaqlarını və qardaşını əlindən almaqda ittiham etmişdi. Ermənistan mediası və siyasi analitiklər isə bildirirlər ki, bu kimi təxribatlar Paşinyanın sülhpərvər mövqeyinə, Rusiya ilə əlaqələri zəiflətməsinə qarşı sabotajdır.

## Şoyqudan "xəbərdarlıq"

Yeri gəlmişkən, Kremlin Paşinyana təhdidi Zaxarova ilə də yekunlaşmayıb. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Ermənistanın Rusiya ilə əməkdaşlıqdan ciddi iqtisadi üstünlüklər əldə etdiyini bildirib. Şoyqu qeyd edib ki, Moskva İrəvanın Rusiya ilə əməkdaşlıqdan fayda götürmək istəyini anlayır, lakin bunun "ikitərəfli küçə" olduğunu vurğulayıb. Onun sözlərinə görə, 2025-ci ildə Rusiyada çalışan Ermənistan vətəndaşları ölkələrinə təxminən 3,9 milyard dollar vəsait göndəriblər. Bu məbləğin Ermənistan ÜDM-nin təxminən 13 faizinə bərabər olduğu bildirilib.

Şoyqu əlavə edib ki, Ermənistan vətəndaşları Rusiyada kvota, patent və iş icazəsi olmadan çalışırlar, eyni zamanda tibbi, pensiya və sosial təminat hüquqlarından da istifadə edirlər. Rusiya rəsmisi bildirib ki, RF Ermənistana malları bazar qiymətindən üç dəfə ucuz təqdim edir. O qeyd edib ki, Rusiyanın Ermənistanın ümumi ticarət dövriyyəsində payı 36 faiz təşkil edir. Açıqlamada təbii qaz, un, taxıl, gübrə və benzinin Rusiyanın Ermənistana əsas ixrac məhsulları olduğu vurğulanıb.

Siyasi təhlilçilər bu açıqlamanı Paşinyana təhdid hesab edirlər - başqa sözlə, açıqlamanın kod şifrəsində, əgər Moskva ilə münasibətlərə "yenidən baxılmasa" bu "güzəştlərin" edilməyəcəyi vurğulanır. Başqa sözlə, Şoyqu yumşaq şəkildə Paşinyana "barmaq silkələyir".

## "Vətən axtarışı prosesinin başa çatdığını bəyan etməliyik"...

Paşinyan isə seçki kampaniyası zamanı regionda münasibətlərin normallaşmasının Ermənistan üçün zəruri olduğunu diqqətə çatdırıb. O Spitakda seçiciləri ilə görüşdə vətən, sülh və Qarabağ erməniləri haqda danışarkən bildirib ki, erməni xalqı durğunluq psixologiyasından əl çəkməli və Ermənistan Respublikasını vətən və sığınacaq kimi qəbul etməlidir. "Nəhayət, vətən axtarışı prosesinin başa çatdığını bəyan etməliyik. Biz öz vətənimizi tapmışıq, bu, Ermənistan Respublikasıdır", - baş nazir bildirib.

Paşinyanın sözlərinə görə, əgər Qarabağ və digər yerlərdə yaşamaq ideyası insanların şüuraltında yaşamağa davam edərsə, Ermənistan vətən kimi deyil, müvəqqəti dayanacaq kimi qəbul ediləcək: "Əgər şüuraltımızda daim Vana, Muşa, Qarabağa və ya Naxçıvana getmək məcburiyyətində qalırıqsa, ölkəmizə müvəqqəti dayanacaq yeri kimi yanaşmağa başlayırıq".

Nikol Paşinyan bunu yol kənarında dayanacaqda olmaq hissi ilə müqayisə edib: "İnsan bu halda tam dincələ və ya özünü təhlükəsiz hiss edə bilmir. Bugünkü siyasi prosesin əsas məqsədi Ermənistan Respublikasının dayanacaq yeri kimi qəbul edilməsini dəyişdirməkdir. Biz çatmışıq".

Baş nazir həmçinin Qarabağ ermənilərinə müraciət edərək vurğulayıb ki, onlar da durğunluq hisslərini dəyişməli və Ermənistanda məskunlaşmalıdırlar: "İndi onlar bura gəliblər, biz istəyirik ki, bu insanlar da bizim kimi məskunlaşsınlar, dayanacaq hissini təyinat yeri hissi ilə əvəz etsinlər".

## Paşinyan ictimai rəy sorğularında öndədir...

Ermənistanda aparılan seçkiqabağı rəy sorğularında isə hakim partiya öndədir. Ermənistan Seçki Araşdırmaları Mərkəzi (ArmES) tərəfindən hazırlanan və EVN Report tərəfindən dərc edilən sorğunun üçüncü turunun nəticələrinə görə, baş nazir Nikol Paşinyana dəstək artmaqda davam edir.

Paşinyanın fəaliyyətini müsbət qiymətləndirənlərin payı sorğunun birinci turunda 36 faiz, ikinci turunda isə 47,2 faiz təşkil edib. Bu rəqəm hazırda 49 faizə çatıb. Baş nazirin fəaliyyətindən narazı qalanların sayı birinci turda 45 faiz, ikinci turda 35,8 faiz, üçüncü turda isə 33,7 faiz olub. Tədqiqat göstərir ki, ölkənin gələcəyi ilə bağlı ictimai rəy dəyişib. Əvvəlki sorğularda əksəriyyət Ermənistanın səhv istiqamətdə irəlilədiyinə inanırdısa, son nəticələrə görə, respondentlərin 44 faizi ölkənin düzgün istiqamətdə inkişaf etdiyini bildirib. Əks fikirdə olanların payı isə 30,9 faiz olub.

Sorğunun müəllifləri qeyd edirlər ki, hakim Vətəndaş Razılığı Partiyası seçkilərdə əhəmiyyətli üstünlüyü qoruyub saxlayır. Lakin partiya müxalifətdən xeyli irəlidə olsa da, hazırkı vəziyyətdə təkpartiyalı hökumət qurmaq üçün lazımi çoxluğu təmin etmir.

Araşdırmalar mərkəzinin sorğusuna görə, Karapetyanın başçılıq etdiyi "Güclü Ermənistan" blokuna inam səviyyəsi enib - bu, blokun Rusiyayönlü xətt seçməsinə və müharibə mesajları verməsi ilə əsaslandırılır.

**SADİQ**

# Latviya müharibəyə qoşulur?

## Danışıqlar öncəsi yeni situasiya...

Rusiya və ABŞ liderlərinin ardarda Çinə səfəri Ukrayna - Rusiya müharibəsinin dayandırılması istiqamətində aparılan danışıqlarda yeni canlanma vəd edirdi. Başqa sözlə, bir sıra analitiklər müharibənin bitirilməsi istiqamətində qlobal güclərin ortaq mövqeyinin döyüşləri tam dayandıra bilmə ehtimalını ortaya qoyur. Amma son günlərdə proses tamam fərqli məcralara yön alır - daha doğrusu, artıq müharibənin sərhədlərinin genişlənməsi təhlükəsi ilə bağlı xəbərlər yayılır. Belə ki, Rusiya Xarici Kəşfiyyat Xidməti Ukrayna Silahlı Qüvvələrinin komandanlığının Latviya ərazisindən Rusiyaya qarşı zərbələr endirməyə hazırlaşdığını bəyan edib. Qeyd olunub ki, Latviya tərəfinin Moskvanın cavab zərbəsinin qurbanı olmaq qorxusuna baxmayaraq, Kiyev Riqanı əməliyyata razılıq verməyə inandırıb.

Ukrayna Xüsusi Təyinatlı Qüvvələrinin məlumatına görə, Ukrayna Pilotsuz Sistemlər Qüvvələrinin şəxsi heyəti artıq Latviyaya yerləşdirilib. Onlar bir neçə hərbi bazada yerləşdiriliblər. Rusiya kəşfiyyatı əlavə edib ki, "ölkənin NATO üzvlüyü Latviyanı ədalətli cəzadan qorumayacaq".

Dövlət Dumasının deputatı Andrey Kartapolov qeyd edib ki, Ukrayna Silahlı Qüvvələri Rusiyaya Latviya ərazisindən hücum edərsə, NATO-nun kollektiv müdafiə haqqında 5-ci maddəsi ona şamil edilməyəcək. O, belə bir halda respublikanın təcavüzkar dövlətə çevriləcəyini və buna görə də Moskvanın ona qarşı cavab zərbəsi endirməsinin haqlı olacağını iddia edib.

"Aİ onlara nə desə, onu da edəcəklər. Nümunə olaraq Amerikanın İrana qarşı əməliyyatını götürək. Demək olar ki, heç bir ölkə ABŞ-ı dəstəkləməyib və 5-ci maddə orada tətbiq olunmur", - Kartapolov deyib.

## ABŞ bazalarına yeni lokasiya təklifi...

Amma Latviya bu iddianı rədd edir. Xarici işlər naziri Baiba Braze bildirib ki, ölkəsi Ukraynanın Rusiyaya hücumları üçün hava məkanından istifadəyə icazə vermək niyyətində deyil. Xarici İşlər Nazirliyi həmçinin Rusiyanın müvəqqəti işlər vəkili Dmitri Kasatkini SVR-in bəyanatına qəti etirazını bildirmək üçün çağırıb. Nazirliyin məlumatına görə, Rusiya kəşfiyyat agentliyinin nəticələri "Rusiya Federasiyası tərəfindən əvvəllər irəli sürülən yalan ittihamlara" əsaslanıb.

Qeyd edək ki, bir müddət əvvəl Latviya hakimiyyəti Vaşinqtonun Almaniyadan çıxarmaq istədiyi hərbi kontingentinin bir hissəsini öz ərazisində yerləşdirməyə hazır olduğunu bildirmişdi. Bildirilmişdi ki, Latviya rəsmiləri amerikalı tərəfdaşları ilə bu barədə danışıqlar aparır. Latviyanın xarici işlər naziri Baiba Braze "Bloomberg TV"-yə verdiyi müsahibədə qeyd etmişdi ki, biz amerikalı müttəfiqlərimizlə bir neçə sahəni müzakirə edirik və onlar bizi nümunəvi müttəfiq hesab edirlər. "Buna görə də biz bu inkişafdan çox məmnun olardıq", - deyə bildirib.

Qeyd edək ki, bir müddət əvvəl Latviya hökuməti ölkədə Amerikanın mövcudluğunu genişləndirmək üçün bütün zəruri infrastrukturu təmin etməyə hazır olduğunu söyləmişdi.

## Latviya silahlı qüvvələri az olsa da...

Qeyd edək ki, Latviya NATO üzvüdür və son illərdə, xüsusilə Rusiya-Ukrayna müharibəsi fonunda müdafiə imkanlarını ciddi şəkildə artırıb. Əsas hərbi bölmələri Quru qoşunları, Hərbi hava qüvvələri, Hərbi dəniz qüvvələri, Milli Qvardiya (Zemessardze) təşkil edən Latviya ordusunun aktiv kontingentinin sayı 2025-2026 məlumatlarına görə təxminən 17-18 mindir. Ehtiyat qüvvə və Milli Qvardiya ilə birlikdə isə bu say 35-40 minə yaxındır. Ölkənin hərbi büdcəsi təxminən 1.9 milyard dollardır. Latviya ordusu kiçik olsa da, NATO standartlarına uyğunlaşdırılıb və əsas gücü sürətli səfərbərlik, hava müdafiəsi sistemləri, NATO ilə koordinasiya, pilotsuz sistemlər və mexanikləşdirilmiş birliklər üzərində qurulub. Latviyada daimi böyük ABŞ bazası yoxdur, amma NATO-nun çoxmillətli hərbi qüvvələri yerləşdirilib. Ən vacib baza 2019-cu ildə fəaliyyətə başlayan Adazi "Şimal" çoxmillətli qərargahıdır. Bu qərargah alyansın Baltikyanı ölkələrin təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Burada Kanada rəhbərliyində NATO briqadası yerləşir. Bazada Kanada, İspaniya, Polşa, İtaliya, İsveç və digər ölkələrin hərbçiləri xidmət edirlər. 2025-ci il məlumatına görə, bazadakı NATO qüvvələrinin sayı artıq briqada səviyyəsinə çatdırılıb və buraya minlərlə əsgər yerləşdirilib.



## Aİ müharibəni NATO çərçivəsinə daşımaq istəyir?

Vurğulandığı kimi, Ukrayna-Rusiya müharibəsinin dayandırılması istiqamətində son dövrlərdə aparılan diplomatik danışıqlar qlobal güclərin bu məsələdə ortaq mövqe axtarışına girdiyinin göstəricisi sayılır. Xüsusilə həm Rusiya, həm də ABŞ rəhbərliyinin Çinlə intensiv təmasları beynəlxalq siyasi dairələrdə yeni geosiyasi mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Analitiklərin fikrincə, Pekin artıq yalnız iqtisadi güc deyil, həm də qlobal təhlükəsizlik məsələlərində əsas vasitəçilərdən birinə çevrilib. Məhz buna görə Rusiya prezidentinin Pekinə səfərindən dərhal sonra ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkofun Moskvaya göndərilməsi ilə bağlı məlumatlar təsadüfi hesab edilmir. Siyasətçilər hesab edirlər ki, Vaşinqton və Moskva arasında müəyyən ortaq nöqtələrin formalaşması Ukrayna müharibəsinin taleyinə birbaşa təsir göstərə bilər.

ABŞ-ın prosesdə əsas vasitəçi rolunu oynaması isə Avropada birmənalı qarşılanmır. Çünki Avropa İttifaqının aparıcı dövlətləri hesab edir ki, müharibənin yekun nəticələri qitənin təhlükəsizlik arxitekturasını uzun illər müəyyənləşdirəcək. Bu baxımdan Avropanın prosesdən kənarda qalması onun siyasi və strateji çəkisinin zəifləməsi anlamına gələ bilər. Bu mənada son günlər Latviyanın müharibəyə daha aktiv şəkildə cəlb oluna biləcəyi ilə bağlı yayılan informasiyalar da məhz bu kontekstdə diqqət çəkir. Baltik regionunda gərginliyin artırılması ehtimalı məhz Aİ tərəfindən danışıqlar prosesinə təzyiq vasitəsi kimi qiymətləndirilir. Bir sıra ekspertlərin fikrincə, Avropadakı müəyyən siyasi mərkəzlər ABŞ və Rusiya arasında mümkün anlaşmanın qarşısını almaq üçün regional təhlükəsizlik risklərini gündəmdə saxlamağa çalışırlar. Çünki müharibənin məhz Vaşinqton-Moskva xəttində əldə olunacaq razılaşma ilə başa çatması Avropanın prosesə təsir imkanlarını azalda bilər.

Digər tərəfdən, Latviyanın müharibəyə cəlb edilməsi birbaşa NATO ilə bağlı olacaq ki, bu da NATO ilə Rusiya arasında münasibətlərin daha da gərginləşməsi deməkdir. Yaranan ehtimal regionu yeni geosiyasi qarşıdurma xəttinə çevirə bilər. Bu isə Ukrayna müharibəsini lokallıqdan qlobal müstəviyə daşıya bilər.

**SADİQ**

# Vaşinqton Ankaranı bölgədə əsas müttəfiqi hesab edir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Donald Tramp ilə telefon danışığı aparıb. İki dövlətin liderləri Türkiyə-ABŞ münasibətləri ilə yanaşı, regional və qlobal məsələləri müzakirə ediblər. Prezident Ərdoğan regiondakı münaqişə zonasında atəşkəsin uzadılması qərarını müsbət qiymətləndirib, mübahisəli məsələlərin həllinin mümkünlüyünə inandığını, irəli sürülən konstruktiv təşəbbüslərə dəstəyin davam edəcəyini bildirib.**



## Tramp: Prezident Ərdoğanla çox yaxşı telefon danışığım oldu

Suriyadakı vəziyyətə toxunan Türkiyə dövlətinin başçısı qonşu ölkədə uzunmüddətli sabitliyin bərqərar olmasını "bütün region üçün əhəmiyyətli qazanc" adlandırıb. Prezident Ərdoğan Türkiyənin Suriyaya dəstəyinin fasiləsiz davam edəcəyini vurğulayıb. O, Livandakı vəziyyətin pisləşməsinin qarşısını almaq üçün isə tədbirlər görülməli olduğunu əlavə edib. Rəcəb Tayyib Ərdoğan NATO-nun Ankara Zirvə Görüşünə hazırlıqların davam etdiyini, Türkiyə olaraq bu tədbirin hər cəhətdən uğurlu keçməsi üçün bütün addımların atıldığını bildirib. O, həmçinin ABŞ Prezidentinə San Dieqoda məscidə edilən silahlı hücumla bağlı başsağlığı verib, Türkiyənin dini ekstremizm əleyhinə mübarizəyə daim hazır olduğunu ifadə edib.

ABŞ Prezidenti Donald Tramp isə jurnalistlərlə söhbətində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefon danışığı barədə təəssüratlarını bölüşüb. Türkiyə lideri ilə aralarında yaxşı münasibətlərin qurulduğunu xatırladan Tramp, bu söhbəti "çox yaxşı danışıq" kimi xarakterizə edib. Ağ Evin rəhbəri Vaşinqton yaxınlığındakı Endryus hərbi bazasında jurnalistlərə açıqlamasında bu barədə danışıb: "Prezident Ərdoğanla çox yaxşı telefon danışığım oldu. Bizim çox yaxşı münasibətlərimiz var. Olduqca sərt insanlarla yaxşı münasibətlər saxlamaq əla deyilmi? O, sərt adamdır, lakin heç kimin onunla mənimki kimi münasibəti yoxdur". Tramp sözlərinə əlavə edib: "Düşünürəm ki, o, həqiqətən də müttəfiqdir. Bəziləri buna şübhə edir, lakin mən hesab edirəm ki, o, mükəmməl bir müttəfiqdir və öz xalqı ona hörmət edir".

Xatırladaq ki, daha əvvəl Türkiyə rəhbərliyi alyansın şərq cinahındakı ölkələrin resurslarla təminatını gücləndirmək və Hörmüz boğazındakı vəziyyətdən asılılığı azaltmaq məqsədilə NATO-ya hərbi neft kəməri tikməyi təklif edib. Bu təşəbbüs hazırda alyansda təsdiqlənmə mərhələsində olan tədbirlər paketinin bəndlərindən biridir.

## Türkiyə dünyada söz sahibi olan dövlətdir

Əlbəttə, ABŞ liderinin Prezident Ərdoğanla bağlı müsbət fikirləri təsadüfi deyil. Çünki Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə böyük inkişaf yolu keçib. Bu gün Türkiyə təkcə regionda deyil, bütün dünyada güclü dövlət kimi tanınır. Qardaş ölkənin hazırda regional proseslərə ciddi təsir imkanları var. Həm Yaxın Şərqdə təhlükəsizliyin təmin olunması, eləcə də Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə təmin edilməsi prosesində rəsmi Ankaranın rolu inkaredilməzdir. Ankaranın Yaxın Şərq və Cənubi Asiyada yeni təhlükəsizlik balansının formalaşmasında rolunu beynəlxalq ekspertlər də etiraf edirlər.

Nəzərə almaq lazımdır ki, Türkiyə NATO-nun ikinci ən böyük ordusuna sahibdir. Digər vacib məqam odur ki, Türkiyə son 20 ildə öz hərbi gücünü əhəmiyyətli dərəcədə artırıb. Bu dövrdə Türkiyə çox sürətlə öz müdafiə sənayesini gücləndirib və ordusunu ən müasir hərbi texnika və atıcı silahlarla təmin edib. Hazırda Türkiyə dünyanın ən böyük pilotsuz uçuş aparatları (PUA) istehsalçısıdır. Ankara bundan sonra da diqqətini pilotsuz döyüş platformalarının işlənib hazırlanmasına yönəldir və ölkə üçün istənilən potensial təhdidin qarşısını almaq üçün çoxsəviyyəli "Polad günbəz" hava hücumundan müdafiə sistemini yaratmaqdadır. Artıq uzunmənzilli hava hücumundan müdafiə sistemi olan "Siper Blok-1" Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib. "Siper blok-1" ölkənin "Polad günbəz" ("Çelik kubbe") sisteminin yeni elementinə çevrilib. Türkiyə mediası yazır ki, sözügedən sistem ABŞ istehsalı olan "Patriot" və Rusiya istehsalı olan "S-400"ə bənzərdir.

## Ankara hərbi gücünü artırır

Bundan başqa, Türkiyə sualtı qayıq layihəsini də uğurla reallaşdırır. Hələ 2015-ci ildə Yeni Tip Sualtı Qayıq Layihəsi çərçivəsində yerlilik göstəricisi yüksək olan "Type-214TN (Reis)" sinfinə məxsus sualtı qayıqların istehsalına başlayan Türkiyə 2017-ci ilin iyun ayında MİLDEN (Milli Sualtı Qayıq) layihəsinə start verib. Layihələndirmə işlərinin başa çatdırılmasından sonra Gölcük Gəmiqayırma Zavodunda ilk gəminin istehsalına başlanılması planlaşdırılıb. İlk gəminin 2031-ci ilə qədər tamamlanacağı gözlənilir.

Türkiyə ən yeni nəsil texniki göstəricilərə malik qırıcılar, helikopterlər və avtomobillər də istehsal edir. Türkiyə milli döyüş təyyarəsi "KAAN"ı istehsal etməklə dünyada 5-ci nəsil qırıcı istehsal edən 5 ölkədən biri sayılır. Xatırladaq ki, Türkiyənin "KAAN" milli hərbi təyyarəsi 2024-cü ilin fevralında ilk uçuşunu uğurla həyata keçirib. Bütün bunlar Türkiyənin hərbi sənayesinin mühüm nailiyyətləridir. Təbii ki, belə güclü hərbi potensiala sahib olan ölkə ilə digər dövlətlər hesablaşmalıdır. Lakin Ankara bu gücü ilə sadəcə öyünmür, dünyada sülh və təhlükəsizliyin təmin olunması təşəbbüslərini davam etdirir.

Donald Tramp ABŞ-da yenidən hakiyyətə gəldikdən sonra Vaşinqton-Ankara əlaqələri istiləşib. Bütövlükdə, ABŞ Türkiyənin regionda güclü qəbul edir və bölgədə özünün əsas müttəfiqlərindən biri hesab edir.

*N.BAYRAMLI*

# ABŞ - İran danışıqları iyunda bərpa oluna bilər

**ABŞ-la İran arasında atəşkəs əldə edildikdən sonra tərəflər yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Xatırladaq ki, fevralın 28-də ABŞ və İsrail İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirilib. Həmin gün zərbələr nəticəsində İranın Ali rəhbəri Əli Xamenei öldürülüb. İran buna cavab olaraq İsrail ərazisinə raket zərbələri endirib və Fars körfəzi ölkələrindəki ABŞ hərbi bazalarına hücum edib. İran, ABŞ və onların müttəfiqləri aprelin 8-nə keçən gecə atəşkəs razılaşmasına nail olublar. Tramp sonradan atəşkəsi qeyri-müəyyən müddətə uzadıb. Tərəflər münaqişəni həll etmək üçün Pakistanda danışıqlar aparıblar, lakin 11-12 apreldə keçirilən ilk raund heç bir nəticə verməyib. ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.**

## Tehran sülh üçün yeni təkliflərini açıqlayıb

Mayın 19-da İran müharibəyə son qoymaq üçün ABŞ-a təqdim etdiyi yeni sülh təklifinin təfərrüatlarını açıqlayıb. Rəsmi IRNA agentliyinin məlumatına görə, təklifin detalları İran xarici işlər nazirinin müavini Kazem Qəribabadi tərəfindən parlamentin milli təhlükəsizlik və xarici siyasət komitəsinin üzvləri ilə görüşdə açıqlanıb. Orada İranla ABŞ arasında diplomatiyadakı son inkişaflar barədə ətraflı hesabat təqdim edilib.

Qəribabadi bildirib ki, Tehranın təklifi "uranın zənginləşdirilməsi və dinc nüvə fəaliyyəti hüququnu" vurğulayır. Təklif, həmçinin Livan da daxil olmaqla bütün cəbhələrdə münaqişələrə son qoyulmasını, ABŞ-ın dəniz blokadasını qaldırmasını, İran aktivlərinin azad edilməsini, Vaşinqton tərəfindən son müharibə zamanı yenidənqurma səylərini dəstəkləmək üçün dəymiş ziyana görə kompensasiya ödənilməsini" əhatə edir. Onun sözlərinə görə, təklifdə bütün birtərəfli sanksiyaların və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin ləğvi və ABŞ qüvvələrinin İslam Respublikasını əhatə edən ərazilərdən çıxarılması tələb olunur.

Mayın 10-da İran ABŞ-ın müharibəyə son qoymaq təklifinə cavabını Pakistan vasitəsilə çatdırmışdı, lakin Prezident Donald Tramp İranın təklifini "tamamilə qəbuledilməz" adlandırıb. İran mediasının yazdığına görə, Tehran Pakistan vasitəsilə ABŞ tərəfinə 14 bəndlik yenidən işlənmiş təklif təqdim edib. Ötən şənbə günü Tramp Tehranı yenidən hərbi eskalasiya ilə hədələsə də, sonradan ABŞ Prezidenti Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirliklərinin tələbi ilə çərşənbə axşamı İrana qarşı planlaşdırılan hücumu təxirə saldığını açıqlayıb. O, bir paylaşımında Müdafiə Nazirliyinə məqbul bir razılaşma əldə edilmədiyi təqdirdə, dərhal İrana qarşı tam, genişmiqyaslı hücuma hazır olmağı tapşırdığını da əlavə edib.

## İslamabad diplomatik səylərini artırıb



Bu arada tərəflər arasında vasitəçilik edən Pakistan müharibənin yenidən alovlanmasına çalışır. "Al Arabiya" telekanalı məlumatına görə, ABŞ və İran arasında münaqişənin həlli ilə bağlı danışıqların növbəti mərhələsi iyunun əvvəlində baş tuta bilər. Qeyd olunub ki, görüş Həcc ziyarəti başa çatdıqdan sonra İslamabadda keçiriləbilər. 2026-cı ildə əsas ziyarət ayinləri 25-29 may tarixləri arasında baş tutur. Mənbələr, həmçinin iddia ediblər ki, hazırda Vaşinqton və Tehran arasında razılaşmanın son versiyası üzərində iş gedir.

Mayın 20-də Pakistanın daxili işlər naziri Möhsin Nəqvinin İrana səfərində məqsəd də ABŞ ilə danışıqlar prosesinin asanlaşdırılması olub. İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai dövlət televiziyasına açıqlamasında bildirib ki, Nəqvinin iştirakı ilə İran və ABŞ arasındakı mətnləri dəqiqləşdirmək üçün əlavə müzakirələr aparılıb. Bu, Pakistan daxili işlər nazirinin Tehrana ikinci səfəri olub. İran XİN-in sözçüsü qeyd edib: "Tehranın əsas diqqəti bütün cəbhələrdə (Livan da daxil olmaqla) müharibəyə son qoymaq, dondurulmuş aktivləri azad etmək və İran gəmiçiliyinə qarşı təqib aktlarını və dəniz piratçılığını dayandırmaqdır".

Nəqvi İrana səfəri zamanı bu ölkənin Prezidenti Məsud Pezeşkian ilə də görüşüb. Rəsmi IRNA xəbər agentliyinin məlumatına görə, görüş zamanı İran-ABŞ danışıqları ilə bağlı son regional inkişaflar və diplomatik məsləhətləşmələr müzakirə olunub. Pezeşkian dialoqun davam etdirilməsi, regional əməkdaşlığın gücləndirilməsi və İslam ölkələri arasında koordinasiyanın vacibliyini vurğulayıb və Pakistan hökumətinin sabitliyi və konstruktiv regional qarşılıqlı əlaqələri dəstəkləmək səylərini yüksək qiymətləndirib.

Mayın 21-də isə Pakistan ordusunun komandanı Asim Munir Tehrana səfər edib. Bütün bunlar İslamabadın İran-ABŞ münaqişəsinin həlli üzrə səylərini gücləndirdiyini göstərir. Lakin diplomatik səylərin artdığı bir vaxtda İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) ABŞ və İsrailin İrana təkrar hücum edəcəkləri təqdirdə döyüş zonasının Yaxın Şərqdən kənara çıxacağı barədə xəbərdarlıq edib. "Fars" agentliyi bu barədə SEPAH-ın bəyanatına istinadla məlumat yayıb. "İrana qarşı təcavüz təkrarlansa, regional müharibə bu dəfə bölgədən kənara yayılacaq və zərbələrimiz gözləmədiyiniz yerlərdə sizə sarsıdıcı məğlubiyyət gətirəcək", - deyə bəyanatda bildirilir.

*N.BAYRAMLI*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Həsrətdən ümidə!

# Şükürbəylidə yeni həyat...

Səhərin ilk işığı hələ şəhərin damlarına tam yayılmamışkən qəribə canlanma başlayır. İllərlə həsrət qoxusu hopmuş torpaqlara doğru uzanan maşın karvanlarının şüşələrində əks olunan günəş işığı sanki hər ailənin içində gizlənmiş başqa bir həyatı oyadır. Bu karvanlarda gedən insanlar sadəcə bir ünvana yox, öz səslərinin, keçmişlərinin içinə doğru yol alırlar. Elə buna görə də maşınların yük yerində daşınan əşyalardan daha ağır bir şey var - zamanın içində donub qalmış həsrət...

Demək olar ki, hər gün azad edilmiş ərazilərimizə doğru yeni köç karvanları yola düşür. Bu köç xəbərləri artıq ölkə həyatının gündəlik ritminə çevrilib. İnsanlar səhər oyananda hansı rayona növbəti köçün baş tutduğunu maraqla izləyir, sosial şəbəkələrdə paylaşılmış görüntülərdə qapısını ilk dəfə açan ailələrin sevincini görür, dağıntıların yerində yenidən qurulan küçələrdə uşaqların qaçdığını izləyirlər.

Dünən Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç karvanı yola salınıb. Bu mərhlədə Şükürbəyli kəndinə 39 ailə - 165 nəfər köçürülüb.

Kəndə daxil olan kimi insan ilk növbədə hiss edir ki, burada görülən işlər sadəcə tikinti texnikasının izi deyil. Hər daşın altında geri qayıdacaq insanların rahatlığı, təhlükəsizliyi və gələcəyi düşünülərək qurulan böyük bir həyat modeli dayanır. Kəndin küçələri boyunca uzanan yeni yollar, səliqə ilə çəkilmiş kommunikasiya xətləri və uzaqdan baxanda bir ahəng içində görünən yeni yaşayış evləri Şükürbəylinin illərlə xatirələrdə qalan köhnə görüntüsünü tamamilə dəyişib. İndi həmin əraziyə baxan insanlar dağıntının yerində necə bu qədər sürətlə yeni həyatın qurulduğuna heyrətlə şahidlik edirlər.

Ən diqqətçəkən məqamlardan biri isə odur ki, burada qurulan infrastruktur yalnız bu günü yox, gələcək onillikləri düşünərək hazırlanıb. Elektrik, su, rabitə və yol şəbəkələrinin müasir standartlara uyğun şəkildə formalaşdırılması göstərir ki, Şükürbəyli artıq keçmişin yarasını daşıyan məkan olmaqdan çıxaraq regionun müasir kənd modelinə çevrilmək yolunda addımlayır. Kəndə baxanda adamın diqqətini çəkən başqa bir məqam da səliqənin və planlı quruculuğun yaratdığı estetik görüntüdür.

Kənddə hər biri 80 yerlik olmaqla iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib. Bununla yanaşı, 35/10 kV-luq elektrik yarımstansiyası inşa olunub, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, internet və “İP TV” şəbəkələri yaradılıb, kənddaxili yollar asfaltlanıb. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçün ayrılıb. Müasir üslubda inşa olunan evlər 2, 3, 4 və 5 otaqlıdır.

Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndləri və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla ümumilikdə 2522 nəfərin - 615 ailənin köçürülməsi nəzərdə tutulur.

Göründüyü kimi, Şükürbəyli bu gün qurulan yolları, yenilənən infrastrukturu, işıqlanan küçələri və yüksələn yeni evləri ilə yalnız kəndin deyil, bütöv bir qayıdışın simvoluna çevrilir. Çünki illər əvvəl sükuta qərq olmuş bir ərazidə indi tikinti səslərinin yerini yaxın gələcəkdə insan nəfəsi, uşaq gülüşü və gündəlik həyatın canlı ritmi alacaq.

*Yeganə BAYRAMOVA*

# Həyatın görünməyən tarazlığı...

Planetimizin hər guşəsində həyatın minlərlə fərqli forması bir-biri ilə möhkəm əlaqəlidir. Bir ağacın yox olması bəzən bir quş növünün sığınacağını itirməsinə, bir çayın çirklənməsi yüzlərlə balığın məhv olmasına səbəb olur. Son zamanlar yer üzündə bioloji müxtəlifliyin sürətlə azalması problemi daha da aktuallaşdırıb. Bir milyon flora və fauna növü yox olmağın bir addımlığındadır. Son 20 ildə gərgin səylərə baxmayaraq, planetin biomüxtəlifliyi azalmaqda davam edir və ekoloji tarazlıq sürətlə dəyişir.

Ekoloji sistemin təqribən 60 faizi deqradasiyaya uğrayıb və ya ehtiyatsız istifadə olunur. Bu da biomüxtəlifliyin itirilməsinə və növbəti 50 ildə daha da pisləşə biləcək ağır nəticələrə gətirib çıxara bilər. Planetdə həyatın müxtəlifliyinin qorunması uğrunda mübarizə aparmağın əsas yollarından biri isə nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunması, təbiətə göstərilən qayğıdır.

Yeri gəlmişkən, mayın 22-si Beynəlxalq Biomüxtəliflik Günüdür. Əvvəllər həmin gün dekabrın 29-da qeyd olunurdu. Lakin 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası tərəfindən 22 may Bioloji müxtəliflik üzrə Konvensiya qəbul olunub və həmin gün Beynəlxalq Bioloji Müxtəliflik Günü elan edilib.

Son hesablamalara görə, təcili tədbirlər görülməsə, 2030-cu ilə qədər biomüxtəlifliyin azalması sürətinin qarşısını almaq məqsədi əldən çıxa bilər. Bu məqsəd 2022-ci ilin dekabrında keçirilən BMT-nin biomüxtəliflik sammitinin əsas mövzularından biri olub.

## Biomüxtəlifliyin qorunması gələcəyin təminatıdır

### Biomüxtəliflik nədir və nə üçün vacibdir?

Biomüxtəliflik Yerdəki həyatın müxtəlifliyi üçün vacibdir. Buraya heyvanlar, bitkilər, göbələklər və bakteriyalar kimi mikroorqanizmlər daxildir. Heyvanlar və bitkilər insanlara yaşamaq üçün lazım olan hər şeyi verir - bunlara şirin su, qida və dərmanlar daxildir.

Ancaq bunun üçün heyvan və bitki müxtəlifliyinin birlikdə işləməsi lazımdır. Bitkilər təbii mühitin sağlamlığı üçün də çox vacibdir. Eyni zamanda bitkilər havanın təmizlənməsi, yüksələn temperaturun sabitləşdirilməsində və iqlim dəyişikliyindən qorunmada əsaslı rol oynayır.

### Biomüxtəlifliyə ən böyük təhlükələr hansılardır?

2001-2021-ci illər arasında Yer kürəsində 437 milyon hektar meşəlik ərazisi azalıb. Yetkin meşələrin formalaşması yüzlərlə, hətta minlərlə il çəkə bilər. Ehtimal edilir ki, bu, biomüxtəlifliyə böyük təzyiq yaradır. Dünya Vəhşi Təbiət Fondu (WWF) Yer kürəsində biomüxtəlifliyin itirildiyini izah edir. İtkilərin ən çox olduğu yerlər Latın Amerikası və Karib hövzəsi hesab edilir. 1970-ci ildən bəri burada heyvanların sayı 94 faizə qədər azalıb. Bu azalmanın ən böyük səbəblərindən biri də onların yaşayış yerlərinin məhv olmasıdır.

Londondakı Təbiət Tarixi Muzeyinin məlumatına görə, Böyük Britaniya Avropada təbii mühitin ən çox tənəzzülə uğradığı ölkələr sırasındadır. Böyük Britaniya 10 faiz azalma ilə qlobal miqyasda geri qalır.

### Azərbaycanda biomüxtəliflik...

Respublikamız Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur. Burada zəngin bitki və heyvan növləri cəmlənib. Müasir Azərbaycan faunası 18000 canlıdan ibarət olub məməlilərin 97 növünü əhatə edir, bunlar 7 dəstəyə, 22 ailəyə və 39 cinsə daxildir. Təkcə onurğalılar faunamızda 700 növlə təmsil olunur. Respublikanın quş faunası 357 növ və yarımnövü əhatə edən 17 dəstəni təmsil edir. Azərbaycanın su hövzələrində balıqların 10 dəstəyə, 16 ailəyə aid olan 100-ə yaxın növ və yarımnövü yaşayır. Azərbaycanın həşəratlar aləmi də son dərəcə zəngin olub 25 minə yaxın növü əhatə edir.

Təbiətin mühafizəsi, ehtiyatların səmərəli istifadəsi, xüsusilə də, unikal növlərin qorunması - milli və bəşəri məsələlərdir. Azərbaycan 2000-ci ildə BMT-nin Baş Assambleyasının biomüxtəliflik üzrə Konvensiyasına qoşulub. Konvensiyaya uyğun olaraq ötən dövr ərzində respublika ərazisində bioloji müxtəlifliyin qorunması ilə bağlı bir sıra tədbirlər həyata keçirilsə də bu sahədə bir sıra problemlər hələ də var. Belə ki, bu gün Xəzərdə biomüxtəlifliyin azalmasında əsas səbəb kimi iqlim dəyişikliyi göstərilir.



Əslində biomüxtəliflik həyatın özüdür. Yağışdan sonra açan bir çiçəyin ləçəklərindəki rəng, dəniz dalğalarının ritmi, meşədə eşidilən quş nəğməsi, gecə səmasında parlayan ulduzların altında nəfəs alan canlılar dünyanın sonsuz ahəngidir. İnsan bu möhtəşəm harmoniyanı qoruduqca Yer kürəsi də öz gözəlliyini gələcək əsrlərə daşımağa davam edəcək.

Təbiəti qorumaq sadəcə ağac əkmək və ya heyvanları sevmək deyil. Bu, həyatın möcüzəsinə sahib çıxmaq, dünyanın nəfəsini qorumaq və gələcəyin daha yaşıl, təmiz və canlı olması üçün atılan ən dəyərli addımdır.

*Yeganə BAYRAMOVA*

# Diabet riskini 31 faiz azaldan yeni pəhriz



İspaniyalı alimlər müəyyən ediblər ki, Aralıq dənizi pəhrizi kalorinin orta dərəcədə azaldılması, fiziki aktivlik və çəki azalmasına yönəlmiş mütəxəssis dəstəyi ilə birlikdə tətbiq olunduqda ikinci tip diabetdən daha effektiv qoruyur. Bu yanaşma xəstəliyin inkişaf riskini 31 faiz azaldıb.

AZƏRTAC xəbər verir ki, tədqiqatın nəticələri “Annals of Internal Medicine” jurnalında dərc olunub.

Araşdırma Avropanın qidalanma sahəsində ən iri layihəsi olan “PREDIMED-Plus” proqramı çərçivəsində aparılıb. Layihədə İspaniyanın 23 universiteti, xəstəxanası və elmi mərkəzindən 200-dən çox alim iştirak edib. Tədqiqata artıq çəkidən və ya piylənmədən əziyyət çəkən, metabolik sindromu olan, lakin diabet və ürək-damar xəstəlikləri olmayan 55-75 yaş aralığında olan 4746 nəfər cəlb edilib. Müşahidələr altı il davam edib.

İştirakçılar iki qrupa bölünüb. Birinci qrup gündəlik kalori qəbulunu təxminən 600 kilokalori azaltmaqla Aralıq dənizi pəhrizinə əməl edib, orta intensivlikli fiziki fəaliyyətlə, yeni gəzinti, güc və tarazlıq məşqləri ilə məşğul olub, həmçinin mütəxəssislərdən məsləhətlər alıb. İkinci qrup isə kaloriyə məhdudiyyət qoyulmadan və fiziki aktivliklə bağlı tövsiyələr verilmədən adi Aralıq dənizi pəhrizinə riayət edib.

Müşahidə dövründə birinci qrupda ikinci tip diabetin yaranma riski 31 faiz daha aşağı olub. Bundan əlavə, həmin iştirakçılar çəki və bel çevrəsini daha effektiv şəkildə azaldıblar. Onlar orta hesabla 3,3 kiloqram çəki itirib, bel çevrəsini isə 3,6 santimetr azaldıblar. Nəzarət qrupunda bu göstəricilər müvafiq olaraq 0,6 kiloqram və 0,3 santimetr təşkil edib.

Tədqiqatçıların hesablamalarına görə, proqram hər 100 iştirakçıdan təxminən üçündə diabetin qarşısını almağa imkan verib. Hazırda dünyada 530 milyondan çox insanın diabetdən əziyyət çəkdiyini nəzərə alsaq, bu nəticə ictimai sağlamlıq baxımından mühüm əhəmiyyət kəsb edə bilər.

“Biz ilk dəfə olaraq Aralıq dənizi pəhrizinin kalorinin azaldılması, fiziki aktivlik və çəki itkisi ilə birlikdə tətbiqinin diabetin profilaktikasında effektiv vasitə olduğunu təsdiqləyən inandırıcı klinik nəticələr əldə etmişik”, - deyə layihə rəhbərlərindən biri, professor Migel Anxel Martinez-Qonsales bildirib.

Müəlliflər vurğulayırlar ki, bu yanaşma sərt məhdudiyyətlər tələb etmir. Belə ki, gündəlik qidalanmada istifadə olunan məhsullara, çəkinin tədricən azaldılmasına və orta səviyyəli fiziki aktivliyə əsaslandığından ilkin tibbi yardım sistemində də tətbiq oluna bilər.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5346
Sifariş: 664
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova